RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 98 (9265) 12 MAY 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İLHAM ƏLİYEVİN 10 günü

## Və Qarabağla Şərqi Zəngəzurda daha sürətlə başlayan yeni quruculuq mərhələsi




**44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işlərinə başlanıldı. Dövlət başçımızın birbaşa nəzarəti altında həyata keçirilən yenidənqurma və bərpa işləri 2 il yarımdır ki, sürətlə davam edir.**

Daşı-daş üstündə qalmayan hər iki iqtisadi rayonumuzda, demək olar ki, böyük infrastruktur qurulur, müxtəlif müəssisələr, obyektlər tikilir, beynəlxalq standartlara uyğun yollar salınır.

İşğaldan azad olunmuş ərazilərimizin turizm və iqtisadi potensialı nəzərə alınaraq regionda hava limanları da tikilib (Füzuli, Zəngilan) istifadəyə verilib. Hazırda bir hava limanı (Laçın) tikilməkdədir. Təbii ki, bizi Qarabağa bağlayan, eyni zamanda xarici turistlərin rahat gediş-gəlişinin təmin olunması, həmçinin yüklərin daşınması baxımından bu hava limanlarının müstəsna əhəmiyyəti var. Növbəti illərdə bu aeroportların əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artacaq.

2020-ci ilin noyabrından Qarabağda və Şərqi Zəngəzurda başlanan quruculuq işlərini dövlətimiz öz hesabına həyata keçirir. İşğaldan azad olunmuş torpaqlarımızda "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasına əsasən şəhərlər və kəndlər yenidən qurulur. Beynəlxalq standartlara uyğun, ən müasir texnologiyalar və innovasiyalar tətbiq olunur. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur modern şəkildə tikilərək gündən-günə əzəmətini artırır.

→ 5

# Heydər Əliyevin misilsiz xidmətlərini hər zaman yüksək ehtiram duyğuları ilə xatırlayacağıq

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu!

Əziz qardaşım!

Sizi və qardaş Azərbaycan xalqını mühüm tarixi hadisə - ölkənizin Ümummilli Lideri, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu unudulmaz gündə Azərbaycan xalqının dahi oğlu və əsl vətənpərvər şəxsiyyətin unudulmaz xatirəsini sonsuz qürur hissi ilə yad edərək xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev öz güclü iradəsi və nadir liderlik qabiliyyəti ilə müasir Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və onun yeni dövlətçiliyinin təməlinin qoyulmasına, millətin birliyinə, həmrəyliyinə misilsiz töhfələr vermişdir.

Eyni zamanda Özbəkistan ilə Azərbaycan arasında çoxşaxəli və uzunmüddətli münasibətlərin hərtərəfli inkişafı, dost və qardaş ölkələrimizin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində bu dahi şəxsiyyətin misilsiz xidmətlərini hər zaman yüksək ehtiram duyğuları ilə xatırlayacağıq.



Mübaliğəsiz qeyd etmək olar ki, bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı "dəyirmi masa"lar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir.

Hörmətli İlham Heydər oğlu!

Biz Zati-alinizi - möhtərəm atanızın başladığı şərəfli yolun layiqli davamçısını, ölkəsinin nüfuzunu beynəlxalq aləmdə böyük dərəcədə artıran və tarixi ədaləti bərpa edən mahir siyasi xadimi Özbəkistanın əsl dostu kimi tanıyırıq, həmçinin strateji tərəfdaşlığımızın yeni səviyyəyə yüksəlməsi üçün Sizin fəal səylərinizi tam dəstəkləyirik.

Xüsusilə və böyük məmnunluqla qeyd etmək istərdim ki, son zamanlar aramızda yaranan və möhkəm etimad ruhunda qurulmuş dialoqlarımız, cari ilin mart ayında Bakıda apardığımız açıq və səmərəli danışıqlarımız ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir.

Bununla yanaşı, yaxın gələcəkdə baş tutacaq ali səviyyədə səfərimiz zamanı əldə ediləcək mühüm razılaşmalar, əməkdaşlığımızın genişləndirilməsinə yönəlmiş dəqiq layihələr və əməli proqramlar şübhəsiz ki, hərtərəfli əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracaqdır.

Atanız Heydər Əliyevin nurlu xatirəsinin qəlblərimizi işıqlandırdığı bu günlərdə Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh və əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

Səmimiyyət və hörmətlə,

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

# "Total Energies" şirkəti Azərbaycanda fəaliyyətini genişləndirmək niyyətindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də "Total Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə SOCAR ilə "Total Energies" arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. "Abşeron" qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olundu.

Nikolas Terraz "Total Energies" şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirdi.

Söhbət zamanı ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

# Birinci vitse-prezident Mehriban Əliyeva Şuşadan paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşadan paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident paylaşımda yazıb:

**"Dostumuzun ailəsində artım var".**

# Birinci vitse-prezident Mehriban Əliyeva "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından video paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından video paylaşıb. AZƏRTAC paylaşımı təqdim edir:

**"Şuşa, 2023**
**"Qarabağ kompozisiyası"**
**İfa edir: Türk dünyasının solistləri".**

# Birinci vitse-prezident Mehriban Əliyeva "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından görüntülər paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından görüntülər paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Mən onun 25 il əvvəl söylədiyi sözləri xatırlayıram: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır". Əminəm ki, həyatının mənasını ölkəsinə xidmət etməkdə görən belə vətənpərvər şəxsiyyəti əbədi olaraq xatırlayacaqlar.

Mənə nadir insan, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi hörmətli Heydər Əlirza oğlunu şəxsən tanımaq nəsib olub. Ondan siyasi müdrikliyi, təmkinliliyi, əsl strateji düşünmə qabiliyyətini məmnunluqla öyrənmişəm.

Minsk ilə Bakı arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasının əsasını qoyan Sizin atanızın xatirəsini Belarusda əziz tuturlar. Rəmzi haldır ki, Azərbaycanda "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini də ləyaqətlə qeyd edirik.

Sizə - atanızın işinin sədaqətli davamçısına və Zati-alinizin yaxınlarına cansağlığı, səadət, əmin-amanlıq, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan xalqının Ümummilli Lideri, dünyamiqyaslı görkəmli şəxsiyyət və türk dünyasının fəxri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Dahi Heydər Əliyevin strateji düşüncə tərzi və uzaqgörənliyi müasir Azərbaycanın yaradılmasında və uğurlu inkişafında əsas amillər oldu. Onun genişmiqyaslı sosial-iqtisadi islahatları, infrastruktur layihələri və çox fəal xarici siyasəti Azərbaycana ölkənin hüdudlarından uzaqlarda da şöhrət qazandırdı.

Biz Sizin şəxsinizdə Heydər Əliyevin Azərbaycanın tarixi qələbəyə nail olduğu, regionda sabitləşdirici siyasi rol oynadığı və beynəlxalq iqtisadi münasibətlərdə nüfuzlu mövqelərə sahib olduğu siyasətinin uğurlu davamını görürük. Qürur hissi ilə qeyd edirəm ki, Qırğızıstanda Azərbaycanın böyük Liderinin adına olan məktəbin bizim tərəfimizdən birgə açılışı əlamətdar hadisədir, qırğız və Azərbaycan xalqlarının qardaşlığının rəmzidir.

Bu fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Azərbaycanın möhtərəm Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Dahi Heydər Əliyev bütün mənalı həyatını sevdiyi ölkəsinə həsr etmiş və milli dövlətçiliyin əsasını qoymuş görkəmli siyasi xadim idi. İndi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır və öz Ümummilli Liderinin xatirəsini ehtiramla yad edir.

Bu xoş fürsətdən istifadə edib, Gürcüstan ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasında dahi Heydər Əliyevin fundamental rolunu vurğulayaraq qeyd etmək istəyirəm ki, onun bu xidmətləri daim yaşayacaqdır. İnanıram ki, biz birgə səylərimizlə strateji tərəfdaşlığımızı xalqlarımızın və bütün regionun rifahı naminə daha da inkişaf etdirməyə davam edəcəyik.

Bu əlamətdar yubiley münasibətilə mən Ulu Öndər Heydər Əliyevin xatirəsinə dərin ehtiramımı bildirir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı və səmimi salamlarımı çatdırıram.

*Dərin hörmətlə,*

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Cənab Prezident!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi X Qlobal Bakı Forumu çərçivəsində Sizinlə görüşümüzü məmnunluqla xatırlayır və Zati-alinizə dərin minnətdarlığımı bildirirəm.

Bu unudulmaz görüşün qəlbimdə yaratdığı xoş təəssüratla Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Bu əlamətdar gün münasibətilə Tanrıdan Sizə və Azərbaycan xalqına xoşbəxtlik və uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

***Ehud OLMERT,***
***2006-2009-cu illərdə***
***İsrail Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Hörmətli Prezident İlham Əliyev!

Sizin mərhum atanız Prezident Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunduğu bu günlər görkəmli siyasi xadimin, tarixi şəxsiyyətin və Liderin, müasir müstəqil Azərbaycanın banisinin həyat hekayəsini, nailiyyətlərini xatırlamaq üçün çox yaxşı fürsətdir.

Dövlət Təhlükəsizliyi Xidmətində yüksək rütbələrdən başlayaraq keçmiş Sovet İttifaqı rəhbərliyində çox məsul vəzifələrə, müstəqil Azərbaycanı təlatümlərdən xilas edərək inkişaf yoluna çıxarmağa qədər uzanan həyat yolunda o, hər zaman əsl Lider olduğunu sübut etmişdir. Heydər Əliyev güclü məntiqi, zəngin təcrübəsi, qətiyyəti və dərin biliyi ilə müsahiblərini həmişə heyrətləndirirdi. Sizin mərhum atanız dünya liderləri arasında böyük hörmətə malikdir. Mən onu şəxsən tanımaq şərəfinə nail olduğuma görə qürur hissi keçirir və dünya liderlərinin BMT-nin himayəsi altında Nyu Yorkda Yeni Minilliyi qeyd etmək üçün keçirilən toplantıdakı görüşümüzü dəqiqliklə xatırlayıram. Bu dahi insanla etdiyimiz fikir mübadiləsi mənim üçün çox səmərəli olmaqla bərabər, onun beynəlxalq geosiyasət barədə aydın, düşünülmüş və praktikyönümlü fikirlərindən dərindən təsirlənmişdim.

Siz Heydər Əliyevin liderlik irsini Azərbaycan və onun xalqı uğrunda daha böyük yüksəkliklərə qaldırdığınıza görə qürurlanmalısınız. Mən Sizi dost adlandırmaqdan qürur duyur, Sizə və Azərbaycana daha uğurlu gələcək arzu edirəm.

Allah Sizi qorusun!

Allah Azərbaycanı qorusun!

*Dərin hörmətlə,*

***Ehud BARAK,***
***1999-2001-ci illərdə İsrail Dövlətinin***
***Baş naziri, Nizami Gəncəvi Beynəlxalq***
***Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!

Sizi və rəhbərlik etdiyiniz respublikanın bütün sakinlərini əlamətdar yubiley - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əlirza oğlu dövlətə xidmət etdiyi uzun illər ərzində özünü səmimi vətənpərvər və uzaqgörən siyasi xadim, xalqının rifahı naminə yorulmadan çalışan məsul və həssas rəhbər kimi göstərib. Həmçinin qeyd etmək sevindiricidir ki, ölkə onun rəhbərliyi ilə sosial və iqtisadi sahələrdə böyük dəyişikliklərə nail olmaqla yanaşı, həm də özünəməxsus xüsusiyyətlərini, ənənəvi mənəvi-əxlaqi dəyərlərə sadiqliyini qoruyub saxlaya bildi.

Sizin atanızın Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının dirçəlməsinə, dinlərarası dialoqun inkişafına, millətlərarası sülhün və vətəndaş barışığının yaradılmasına verdiyi böyük şəxsi töhfəni minnətdarlıqla qeyd etmək istəyirəm.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, bütün Azərbaycan xalqına isə firavanlıq və sülh arzulayıram.

*Dərin hörmətlə,*

***Kirill,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Atanız, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şanlı yubileyini qeyd edərkən, mən də onun nurlu xatirəsini Sizinlə və xalqınızla birgə yad edir və Sizə qoşuluram.

Mən bu dahi şəxsiyyətin özünü və onun dinlərarası harmoniya üçün təməl rolunu oynayan dəyərli fikirlərini heç zaman unutmayacağam. Bilirəm ki, Siz Heydər Əliyevin beynəlxalq arenada layiqli yerini tutmuş Azərbaycana inkişaf, tərəqqi və sabitlik gətirən siyasi kursunu uğurla davam etdirdiyiniz üçün onun ruhu şaddır.

*Ən xoş arzularla,*

***Ravvin Artur ŞNAYER,***
***ABŞ-nin "Vicdana çağırış" Fondunun prezidenti***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Şimali Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan Sizi atanızın, müasir dövrün görkəmli siyasi xadimi, Azərbaycan xalqının Ümummilli Lideri və fəxri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Heydər Əliyev müdrik siyasi xadim və əsl xalq lideri kimi təkcə Azərbaycan Respublikasının deyil, həm də keçmiş SSRİ-nin bütün xalqlarının tarixində silinməz parlaq izlər qoyub. Qeyri-adi şəxsiyyət, uzaqgörən rəhbər, öz xalqının mətin oğlu olan Heydər Əlirza oğlu Əliyev çox mürəkkəb dövrdə bütün dünya azərbaycanlılarını azərbaycançılıq ideyası ətrafında birləşdirə bildi, bununla da Azərbaycan xalqının birliyinin və Azərbaycan dövlətinin sarsılmazlığının möhkəm bünövrəsini qoydu. Eyni zamanda onun zəngin siyasi irsi Azərbaycanın dünya miqyasında layiqli yerini və dost ölkələrin, o cümlədən Rusiyanın hörmətini təmin etdi. Müasir Azərbaycan Respublikasının tarixini Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil.

1997-ci ildə Heydər Əliyevlə şəxsən görüşməyim mənim üçün unudulmazdır və qəlbimdə bu görkəmli şəxsiyyətə əbədi olaraq sonsuz ehtiram yaratdı. Onun müdrikliyi, uzaqgörənliyi, siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə bütün problemləri dərindən təhlil etmək qabiliyyəti məndə həqiqətən heyranlıq hissi doğurdu. O deyirdi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Onun bütün sözlərində və işlərində dəyişməz olaraq Azərbaycan xalqının və dövlətinin maraqları naminə sərf etdiyi nüfuz var idi.

Siz, çox hörmətli cənab Prezident, dahi atanızın işini davam etdirərək Azərbaycanın və onun şərəfli xalqının gələcək tərəqqisini təmin edir, həmçinin əsrlərboyu bizim ölkələrin xalqlarını birləşdirən və birləşdirməyə davam edən dostluq, sıx mehriban qonşuluq və qarşılıqlı etimad işinə layiqli töhfə verirsiniz.

Bu gün dahi Heydər Əliyevin xatirəsi Azərbaycanın sabitliyi və tərəqqisinin onun tərəfindən qoyulmuş möhkəm bünövrəsinə əsaslanan Sizin gördüyünüz işlərdə, dövlət və xalq qarşısında müstəsna xidmətlərinizdə yaşayır. Əminəm ki, Ümummilli Liderin ideyaları gələcəkdə də diqqətlə qorunacaq, nəsildən-nəslə ötürüləcək və gözəl ölkənizin - Azərbaycanın gələcək inkişafında mayak rolunu oynayacaq.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan xalqına tərəqqi və rifah diləyirəm. Qoy, Sizin gözəl torpağınızda həmişə aydın səma olsun! Azərbaycana sülh, firavanlıq və əmin-amanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Şaqabitdin-Hacı KERİMOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Dağıstan və***
***Şimali Qafqaz üzrə səlahiyyətli nümayəndəsi***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm Prezident İlham Əliyev!

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Müstəqil Azərbaycanın banisi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq onun anadan olmasının 100 illiyi münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, son çıxışlarınızın birində çox gözəl vurğuladığınız kimi, "Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib. Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı".

Cənab Prezident, Sizin müdrik liderliyiniz insanı valeh edir. Zati-aliniz bu gün Ulu Öndər Heydər Əliyevin missiyasını davam etdirir. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad edir və Zati-alinizə xalqınıza xidmət işində müdriklik və qüvvət diləyirəm.

Azərbaycan ilə İsrail arasında səmərəli münasibətlərin olmasına şahidlik etmək çox möhtəşəmdir və mən Avropa Ravvinləri Konfransının Daimi Komitəsinin vitse-prezidenti olaraq 2023-cü ilin noyabr ayında Azərbaycana edəcəyim səfərim zamanı Zati-alinizlə görüşməkdən şərəf hissi duyardım.

Sizinlə səmərəli müzakirələrimizi, ümumbəşəri dəyərlərlə bağlı fikir mübadiləsi aparmağımızı böyük səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Ən xoş arzularla qardaşınız,*

***Ravvin İzhak DAYAN,***
***İsveçrənin Cenevrə şəhərinin baş ravvini,***
***Avropa Ravvinləri Konfransının Daimi***
***Komitəsinin vitse-prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev!

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Sizi təbrik etməkdən böyük qürur hissi keçirirəm.

Heydər Əliyev Azərbaycan dövlətini və xalqını tarixin çətin və sərt sınaqlarından xilas etdi. O, müstəqil ölkə yaradaraq onun parlaq gələcəyinə etibarlı bünövrə qoydu.

Heydər Əliyevin mədəniyyətlərarası və dinlərarası harmoniyaya əsaslanan strategiyası və siyasəti dünya ölkələri üçün nümunədir. Məhz həmin strategiyanın nəticəsində bugünkü Azərbaycan dini azadlığı olan, digər dinlərə hörmət edən, onları qəbul edən və bir çox dini icmanın sülh və dinc şəraitdə bir arada yaşadığı ölkəyə çevrilib.

Bu dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramımı bildirir və arzu edirəm ki, onun strategiyası öz xalqını və digər dünya ölkələrinin xalqlarını ilhamlandırmaqda davam etsin.

Cənab Prezident, Sizə öz xeyir-dualarımı çatdıraraq möhkəm cansağlığı, uğurlar arzulayır, uzun illər Azərbaycana rəhbərlik etməyinizi diləyirəm.

*Dərin hörmətlə,*

***Elie ABADİE,***
***Birləşmiş Ərəb Əmirliklərinin***
***Yəhudi Şurasının Baş ravvini***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident!

Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!

Beynəlxalq Müsəlman Alimləri Birliyi Sizə ən yüksək təqdir və ehtiramını ifadə edir və ümidvar olduğunu bildirir ki, Siz dini və dünyəvi işlərinizdə xeyir və səadət içində daha çox müvəffəqiyyət və mükafata qovuşacaqsınız.

Cənab Prezident, 2023-cü il 10 may tarixinin yaratdığı fürsətdən istifadə edərək qardaş Azərbaycan dövlətinin qurucu Prezidenti, Allahın izni ilə mərhum Heydər Əliyevin Azərbaycanın müstəqilliyi, birliyi, tərəqqisi və rifahı, onu regionda qabaqcıl, güclü və çiçəklənən ölkəyə çevirmək naminə göstərdiyi böyük xeyirxah səylərini təqdirlə anırıq.

Möhtərəm Prezident, bu gün biz görürük ki, Zati-alinizin böyük səyləri demokratik islahatlar, dini və iqtisadi azadlıqlar, tolerantlıq dəyərlərinin möhkəmlənməsi, islam ümmətində qardaşlıq əlaqələrinin dərinləşməsi, eləcə də islam əməkdaşlığına dəstək baxımından ulu atanızın siyasətinin davamı və inkişafıdır. Biz görürük ki, Uca Tanrının məsləhəti, Sizin mükəmməl rəhbərliyiniz sayəsində Azərbaycan cəmi 44 gün ərzində əldə etdiyi Zəfərlə otuz ildən artıq işğalda qalan torpaqlarını azad edib öz suverenliyini, ərazi bütövlüyünü bərpa edə bildi. Beləliklə, Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq müstəvidə nüfuzlu ölkəyə çevrilərək, dünyanın diqqətini Qafqaz regionunda, Xəzər dənizi hövzəsində yerləşən, intibah yaşayan bu ölkəyə yönəltməklə özünün müasir tarixində yeni mərhələyə qədəm qoydu.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, on minlərlə alimi, onlarla üləma cəmiyyətlərini birləşdirən, bütün gücü ilə Azərbaycan xalqı, hökuməti və Prezidenti ilə yan-yana dayanan Beynəlxalq Müsəlman Alimləri Birliyi ölkə və xalq üçün faydalı olan, islami maliyyə institutlarının nizamlanmasına, iqtisadiyyatın möhkəmlənməsinə töhfə verə biləcəyimiz hər işdə Zati-alinizlə və əziz ölkənizdə dini işlərdən məsul qurumlarla əməkdaşlıq etməyə hazırdır.

Zati-alinizin şəxsiyyətinə bir daha minnətdarlığımızı bildirir, böyük xalqınıza xidmətinizdə Sizə bundan sonra da uğurlar arzulayır, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, rifah, tərəqqi və firavanlıq diləyirik.

*Daim Allah amanında olun!*

***Hörmətlə qardaşınız,***
***professor Əli Muhyiddin Əl QARADAĞI,***
***Qətər Dövlətindəki Beynəlxalq Müsəlman***
***Alimləri Birliyinin Baş katibi***

# Milli Məclisin Sədri Sahibə Qafarova Fransanın Azərbaycandakı səfiri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 11-də Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayonla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək ümidvar olduğunu bildirib ki, o, Fransanın Azərbaycandakı səfiri kimi fəaliyyətində ölkələrimiz arasında münasibətlərə öz töhfəsini verəcək.

Spiker qeyd edib ki, ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub. Milli Məclisin Sədri bu 30 il ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu qeyd edib, O, həmçinin tərəflər arasında iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, mədəniyyət, təhsil sahələrində müsbət əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Qeyd edilib ki, çoxsaylı yüksəksəviyyəli səfərlər və görüşlər ikitərəfli münasibətlərimizdə mühüm rol oynayıb. Sahibə Qafarova Prezident İlham Əliyevin Fransaya 13, Fransa prezidentlərinin 3 dəfə ölkəmizə səfər etdiyini xatırladıb. O, həmçinin Heydər Əliyev Fondunun Fransadakı fəaliyyətini qeyd edib.

Milli Məclisin Sədri ötən dövrlərdə ikitərəfli münasibətlərdə əldə olunmuş bu nailiyyətlərə baxmayaraq, bəzi Fransa rəsmilərinin və siyasətçilərinin Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə açıq şəkildə Ermənistana dəstəyini ifadə edən, Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və ermənipərəst siyasətini göstərən bəyanatlarının Azərbaycan ictimaiyyətinin haqlı və ciddi narazılığına səbəb olduğunu xatırladaraq, bu kimi təxribatçı bəyanatların ikitərəfli münasibətlərimizə mənfi təsir göstərdiyini qeyd edib. Spiker Fransa Senatında və Milli Assambleyada qərəzli qətnamələrin qəbul edilməsini pisləyib. Sahibə Qafarova xatırladıb ki, 2022-ci ilin noyabrında Milli Məclis tərəfindən Fransa Senatında və Milli Assambleyada Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsini pisləyən bəyanat qəbul edilib və parlamentarilərimiz Fransanın rayon və şəhərlərinin nümayəndələrinin, Milli Assambleya və Senat üzvlərinin təxribat xarakterli fəaliyyətinə və bəyanatlarına öz narazılıqlarını bildiriblər.

Spiker Sahibə Qafarova Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanın regiona son səfəri, Laçın yolu ilə bağlı Ermənistanda verdiyi bəyanatlar, həmçinin Fransanın ictimai radiosuna verdiyi müsahibədə səsləndirdiyi iddiaları qəbuledilməz adlandırıb. Qeyd edib ki, bu kimi qeyri-obyektiv fikirlər göstərir ki, Fransa bu məsələdə birtərəfli, qərəzli mövqeyini davam etdirir. Hamıya aydın olmalıdır ki, Qarabağ regionu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisidir və ölkəmizin ayrılmaz hissəsidir.

Səfir Ann Buayon görüşə görə minnətdarlığını bildirib. O, Azərbaycanda diplomatik fəaliyyətə başlayandan sonra keçirdiyi görüşlər barədə məlumat verib.

Səfir ölkələr arasında münasibətlərdə qanunvericilik orqanlarının mühüm rolunu qeyd edib, parlamentarilərin qarşılıqlı əlaqələrinin əhəmiyyətini vurğulayıb. O, Fransa parlamentində qəbul olunan sözügedən qətnamələrin hökumət tərəfindən dəstəklənmədiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədr müavini Adil Əliyev Pakistan parlamentində çıxış edib



**Milli Məclisin Sədr müavini Adil Əliyev Pakistanda keçirilən beynəlxalq konfransda "Dəyişən dünyada konstitusiyalar - sabitliyin və uyğunluğun balanslaşdırılması" mövzusunda çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vitse-spiker Adil Əliyev Pakistan İslam Respublikasının Konstitusiyasının 50 illiyi ilə bağlı Milli Assambleyada təşkil edilmiş konfransda çıxışı zamanı konstitusiyanın əsas mahiyyətinin insan hüquq və azadlıqlarını, dövlətin suverenliyini və ərazi bütövlüyünü qorumaq olduğunu qeyd edib. O, 10 may tarixinin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsindən, Ümummilli Liderin təşəbbüsü ilə müstəqil Azərbaycanın müasir konstitusiyasının qəbul edilməsindən və bu prosesə onun verdiyi möhtəşəm töhfələrdən bəhs edib. Adil Əliyev konstitusiyamızın 7-ci maddəsində Azərbaycan Respublikasında qanunverici, icraedici və məhkəmə hakimiyyətləri bölgüsünün əksini tapdığını qeyd edib, əsas qanunun I bölməsinin sırf insan hüquq və azadlıqlarına həsr olunduğunu bildirib.

Konstitusiyalarda nəzərdə tutulmuş normaların bəzi hallarda xarici dövlətlər tərəfindən kobud şəkildə pozulduğunu qeyd edən vitse-spiker Ermənistanın 30 il ərzində tarixi Azərbaycan torpaqlarını işğalda saxlamasını buna nümunə olaraq göstərib. Bildirib ki, işğal dövründə 1 milyondan artıq Azərbaycan vətəndaşı evlərindən qovulub, 30 il qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olub. Adil Əliyev Ermənistanın Azərbaycan ərazilərini işğalı faktının ölkəmizin suverenliyi, ərazi bütövlüyü ilə bərabər, həm də vətəndaşlarımızın yaşamaq, mülkiyyət, özlərinə sərbəst yaşayış yeri seçmək kimi təməl hüquqlarını kobud şəkildə pozduğunu bildirərək, 30 il müddətində Azərbaycan vətəndaşlarının bu hüquqlarından məhrum edildiyini diqqətə çatdırıb. Sədr müavini daha sonra 2020-ci ildə Azərbaycanın qazandığı tarixi qələbə ilə həm BMT-nin qətnamələrinin icra edildiyini, həm də ölkəmizin beynəlxalq hüquqda və öz konstitusiyasında nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının, ərazi bütövlüyünün və suverenliyinin bərpa edildiyini bildirib.

Daha sonra parlamentin Sədr müavini çıxışında baş verən müharibələr və digər fəlakətlər fonunda insan hüquq və azadlıqlarının təmin edilməsində yaşanan çətinliklərdən birinin də məhz pandemiya və digər qlobal hadisələr olduğunu deyib. O, son üç ildə bütün dünyanı əhatə edən COVID-19 pandemiyasının qlobal proseslərə, həmçinin insan hüquq və azadlıqlarının təmin olunmasına təsirindən danışıb.

*"Azərbaycan"*

# "Yüksək Səviyyəli Müşahidəçi Günü"

Mayın 11-də Türkiyə Respublikasının Konya şəhərində "Anadolu Qartalı - 2023" beynəlxalq taktiki-uçuş təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvətilə qardaş ölkədə səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov beynəlxalq təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak etmək üçün Konya şəhərinə gediblər.

Təlimlərin keçirildiyi ərazidə fəxri qarovulun iştirakı ilə Azərbaycan nümayəndə heyətinin təntənəli qarşılanma mərasimi olub, xatirə şəkli çəkdirilib.

Sonra "Anadolu Qartalı" təlim mərkəzinin açılışı olub.

General-polkovnik Z.Həsənov və digər qonaqlar sərgidə "ASELSAN" və "Tubitak" şirkətlərinin nümayəndələri ilə görüşüb, nümayiş etdirilən müasir silah və avadanlıq nümunələri ilə tanış olublar.



Brifinq zalında qonaqlara "Anadolu Qartalı - 2023" taktiki-uçuş təlimində çəkilmiş görüntülər əsasında hazırlanan videoçarx təqdim olunub.

Birgə təlimlərin gedişi, yerinə yetirilən tapşırıqlar barədə yüksəksəviyyəli qonaqlar üçün brifinq təqdim edilib.

Brifinqdən sonra Azərbaycan və Türkiyə respublikalarının müdafiə nazirləri çıxış ediblər.

General-polkovnik Z.Həsənov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq şəhid hərbi qulluqçulara və baş verən zəlzələ nəticəsində həlak olan insanlara rəhmət diləyib.

Müdafiə naziri bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri dövlət başçılarımızın rəhbərliyi ilə uğurla davam etdirilir.

Bu gün Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür.

General-polkovnik Z.Həsənov Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2023" taktiki-uçuş və Qars şəhərində keçirilən "Heydər Əliyev - 2023" təlimlərinin hərbi qulluqçuların bilik və bacarıqlarının daha da artırılmasına xidmət etdiyini bildirib.

Sonra Türkiyənin milli müdafiə naziri cənab Hulusi Akar çıxış edərək birgə təlimlərin keçirilməsini yüksək qiymətləndirdiyini qeyd edib. Hərbi əməkdaşlığın inkişafının vacibliyini bildirən cənab H.Akar bu təlimlərin hərbçilərin təcrübə qazanması üçün çox vacib olduğunu, hərbi əməkdaşlığın xalqlarımız və ölkələrimizin təhlükəsizliyinə və bölgədəki sabitliyə yönəldiyini xüsusi vurğulayıb.

Hər iki nazir təlim iştirakçıları tərəfindən yüksək peşəkarlıq və bacarıq nümayiş etdirildiyini, həmçinin qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini yüksək qiymətləndirərək iştirakçılara hərbi xidmətlərində daha böyük uğurlar arzulayıblar.

Səfər çərçivəsində həmçinin general-leytenant R.Tahirov türkiyəli həmkarı ordu generalı Atilla Gülan ilə görüşüb. Görüşdə hərbçilərimizin keçirilən birgə təlimlərdə qazandığı təcrübənin əhəmiyyəti qeyd edilib. Qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə inkişaf etdiriləcəyinə və möhkəmləndiriləcəyinə əminlik ifadə olunub.

"Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edən qonaqlar təlimlərin praktiki hissəsini, Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" aviaqrupuna daxil olan F-5 tipli hərbi təyyarələrin nümunəvi uçuşlarını izləyiblər.

Tədbirin sonunda modernizasiya nəticəsində Su-25 hücum təyyarəsinə quraşdırılan yeni raketin sınaq atışı nümayiş etdirilib. Atış zamanı təyin olunan hədəf 25 kilometr məsafədən yüksək dəqiqliklə məhv edilib. Raketin effektivliyi yüksək qiymətləndirilib.

Sonda xatirə fotosu çəkdirilib.

# "Sülhün kökləri" təşkilatının rəhbəri Azərbaycana qarşı yaranmış mina təhdidləri barədə məlumatlandırılıb



**Mayın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov minaların təmizlənməsi sahəsində humanitar fəaliyyət göstərən ABŞ-nin "Sülhün kökləri" humanitar təşkilatının təsisçisi və rəhbəri Haydi Kün ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazir Ceyhun Bayramov Ermənistanın ölkəmizə qarşı 30 ilə yaxın davam etmiş təcavüzü nəticəsində Azərbaycana qarşı yaranmış mina təhdidləri barədə müqabil tərəfə ətraflı məlumat verib.

Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minaların qurbanına çevrilməsi və minaların təmizlənməsi sahəsində Ermənistanın Azərbaycanla əməkdaşlıq etməməsi diqqətə çatdırılıb.

Mina təhdidlərinin 44 günlük Vətən müharibəsindən sonra bərpa və yenidənqurma işlərinə və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması prosesinə maneə olduğu vurğulanıb.

"Sülhün kökləri" beynəlxalq humanitar təşkilatının rəhbəri xanım Haydi Kün də öz növbəsində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının bütün region üçün əhəmiyyətini vurğulayaraq, eyni zamanda Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri və bu istiqamətdə birgə əməkdaşlığa dəstək göstərmək niyyətini bəyan edib.

Tərəflər daha sonra qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Yeni qanun layihəsi hazırlanıb

**Mayın 11-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda "Kosmik fəaliyyət haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə edilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili müasir dünyada kosmik tədqiqatların və fəaliyyətin dövlətlərin iqtisadi inkişafında mühüm rol oynamasından bəhs edib. O bildirib ki, kosmik fəaliyyət iqtisadi fəaliyyətin prioritet sahələrindən birinə çevrilib. Komitə sədri bu gün kosmik tədqiqatların və texnologiyaların bəşəriyyətin bir sıra problemlərinin həllində, ətraf mühitin öyrənilməsində, xammal və enerji ehtiyatlarının axtarışında, informasiya texnologiyalarının təkmilləşdirilməsində, milli təhlükəsizliyin təminatında getdikcə artan rolundan danışıb.

Azərbaycanda kosmik fəaliyyətin tarixinə nəzər salan komitə sədri ölkəmizdə onun əsasının hələ 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Ulu Öndərin Azərbaycana ilk dəfə rəhbərliyi dövründə kosmik fəaliyyətin iqtisadiyyata inteqrasiya olunması mərhələsinin başladığını deyən Tahir Mirkişili bu istiqamətdə beynəlxalq tədbirlərin keçirilməsindən, alim və mütəxəssislərin yetişdirilməsindən, texnologiyaların tətbiqi və elmi-kosmik cihazqayırma sahəsində əldə edilmiş nailiyyətlərdən danışıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiq etməsi ilə ölkəmizdə kosmik texnologiyaların mənimsənilməsi tarixində yeni səhifənin açıldığını diqqətə çatdıran komitə sədri 2013-cü ildən öz süni peyklərini Yerin orbitinə çıxaran ölkəmizin kosmik texnologiyalardan istifadədə əldə etdiyi nailiyyətlərdən söz açıb. O vurğulayıb ki, sürətli iqtisadi inkişafı, milli təhlükəsizliyi, ümumiyyətlə, müasir həyatı kosmik fəaliyyətsiz təsəvvür etmək mümkün deyil.

Sonra məsələ ilə bağlı danışan Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov ölkəmizdə müasir kosmik sənayenin tarixi, yaradılan infrastruktur, onun komponentləri barədə məlumat verib. Azərbaycanın orbitdəki peykləri, onların göstərdikləri xidmətlər barədə söz açan "Azərkosmos"un sədri kosmik fəaliyyətin kommersiya rentabelliyindən bəhs edib. O bildirib ki, peyklər Azərbaycan iqtisadiyyatının inkişafına, müdafiə və milli təhlükəsizliyin artırılmasına, işğaldan azad edilmiş ərazilərin monitorinqi, bərpası və digər genişmiqyaslı layihələrin həyata keçirilməsinə mühüm töhfələr verir. "Kosmik fəaliyyət haqqında" qanun layihəsinin qəbulu ilə milli kosmik qanunvericiliyin formalaşacağını deyən Saməddin Əsədov layihənin məqsədi, kosmik fəaliyyətin prinsipləri barədə məlumat verib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Elmin Məmmədov qanun layihəsinin əsas parametrləri barədə şərh verib. Bildirib ki, 6 fəsil 24 maddədən ibarət olan qanun layihəsi Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik fəzada milli fəaliyyətin həyata keçirilməsi və kosmik sənayedə sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir.

Elmin Məmmədov layihədə təsbit olunan kosmik fəaliyyətin dövlət tənzimlənməsi, kosmik obyektlərin dövlət qeydiyyatı, kosmik fəaliyyətin iqtisadi xüsusiyyətləri, təhlükəsizliyinin təmin edilməsi kimi məsələləri izah edib.

Qanun layihəsinin müzakirəsində komitə üzvləri Vahid Əhmədov, Aydın Hüseynov, Məzahir Əfəndiyev çıxış edərək sənədlə bağlı fikirlərini bildiriblər, onun aktuallığını və əhəmiyyətini vurğulayıblar.

Müzakirələrin sonunda "Kosmik fəaliyyət haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Altı dövlət informasiya ehtiyatının fəaliyyəti dayandırılıb

**İnformasiya təhlükəsizliyi tələblərinə cavab vermədiyindən altı dövlət informasiya ehtiyatının fəaliyyəti Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən dayandırılıb.**

Bu barədə AZƏRTAC-a XRİTDX-nin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, aparılan audit yoxlamaları nəticəsində müəyyən edilmiş təhlükəsizlik risklərinin aradan qaldırılması səbəbindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin http://ayl.eco.gov.az, Xarici İşlər Nazirliyinin http://aida.mfa.gov.az və http://nakhchivan.mfa.gov.az, Qusar Rayon Gənclər və İdman İdarəsinin http://qusargii.gov.az, Gəncə Avtomobil Zavodunun http://ganjaauto.gov.az və İsmayıllı Rayon Bələdiyyəsinin http://ismayilli-bl.gov.az elektron informasiya ehtiyatının fəaliyyəti dayandırılıb.

Həmin saytlarda informasiya təhlükəsizliyi üzrə çatışmazlıqlar aidiyyəti qurumlar tərəfindən aradan qaldırıldıqdan sonra onların fəaliyyəti bərpa ediləcək.

# Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün BMT Azərbaycanın bütün səylərini dəstəkləyəcək

**Mayın 11-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar İqtisadiyyat Nazirliyində "Azərbaycanda BMT-nin inkişaf təşəbbüslərinin həyata keçirilməsində Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib.**










AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Ümummilli Liderin xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsi nəticəsində bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də əhəmiyyətli dəyişikliklər baş verdiyini vurğulayıb. Qeyd edib ki, həmin dövrdə yenicə müstəqilliyini əldə etmiş dövlətin milli maraqlara uyğun xarici siyasət kursunun işlənib hazırlanması dahi strateq Heydər Əliyevin sayəsində mümkün olub. O vaxtdan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin nəticələrinin dünya ictimaiyyətinə çatdırılması və ölkəmizin haqlı tələblərinin yerinə yetirilməsi xarici siyasət kursumuzda əsas yerlərdən birini tutmağa başlayıb. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası, həmçinin BMT ilə əməkdaşlığın inkişafı, birgə layihələrin həyata keçirilməsi ölkəmizin dünyada nüfuzunu artırmaqla yanaşı, iqtisadi potensialımızı daha da gücləndirib, inkişafa töhfə verib. Azərbaycanın sürətli inkişaf dinamikası isə əhalinin rifahının daha da yüksəlməsinə xidmət edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin ölkəmizdə siyasi institutların formalaşmasında, sosial-iqtisadi inkişafda misilsiz xidmətlərindən danışıb. Vurğulanıb ki, məhz Heydər Əliyevin liderlik məharəti, strateji qərarları sayəsində ölkəmizdə güclü və müstəqil dövlət, davamlı inkişaf edən iqtisadiyyat və rifahlı cəmiyyət formalaşıb. Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə Ulu Öndər tərəfindən daim diqqət yetirilib. Ölkəmizdə Minilliyin İnkişaf Məqsədlərinə nail olunması məqsədilə kompleks tədbirləri əhatə edən dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan bir çox hədəflər üzrə mühüm nailiyyətlər əldə edib. Ölkəmiz yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu öhdəliyi yerinə yetirən 18 ölkədən biri olub, 2010-cu ildə "orta insan inkişafı" statusuna malik ölkələr qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasına daxil olub. Bildirilib ki, BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq respublikamız "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. DİM-in icrası ölkədə uğurla davam etdirilir, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib, növbəti hesabatın isə gələn il təqdim olunması nəzərdə tutulub.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Bik Lum Heydər Əliyevin Azərbaycan-BMT münasibətlərinin inkişafında, ölkəmizin sosial-iqtisadi sferada əsas hədəflərinə nail olunmasında mühüm xidmətlərini vurğulayıb, BMT-Azərbaycan tərəfdaşlığının 30 ildən artıq müddətdə uğurla davam etdiyini bildirib. Qeyd olunub ki, Minilliyin İnkişaf Məqsədlərinin icrasına böyük töhfə verən Heydər Əliyevin başladığı təşəbbüslər nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enmiş, ölkənin İnsan İnkişafı İndeksində göstəriciləri isə 30 faiz artmışdır. Bik Lum həmçinin bildirib ki, hazırkı əməkdaşlıq çərçivəsini icra etmək və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün BMT Azərbaycanın bütün səylərini dəstəkləyəcək.

Konfransda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, deputatlar Ziyad Səmədzadə, Məzahir Əfəndiyev, Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, BMT Əhali Fondunun Ölkə üzrə Nümayəndəliyinin rəhbəri Fərid Babayev Ulu Öndərin zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanda iqtisadi tərəqqinin, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, qeyri-neft sektorunun, sənayenin, sosial infrastrukturun, qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi, insan hüquqlarının, gender bərabərliyinin təşviqi istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan söz açıblar.

Tədbirdə Ulu Öndərin Azərbaycanın beynəlxalq münasibətlərinin formalaşması, Azərbaycan-BMT əlaqələrinin inkişafı ilə bağlı gördüyü işlər, təşkilatın Baş Assambleyasında çıxışları və yüksəksəviyyəli görüşlərini əks etdirən film nümayiş olunub.

# "Natəvan" operası Şuşada ilk dəfə səsləndirilib



**Şuşada ilk dəfə "Natəvan" operası təqdim edilib. AZƏRTAC xəbər verir ki, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının sonuncu günündə ilk yaşanıb və Cıdır düzü Vasif Adıgözəlovun "Natəvan" operasının sədalarına bürünüb.**



Qeyd edək ki, Qarabağ xanının qızı, Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın həyat və yaradıcılığına, o dövrdə Qarabağda baş verən ictimai-siyasi hadisələrə həsr olunan opera Şuşada ilk dəfə nümayiş olunub.

Səhnədə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının artistləri yer alıb. Dirijor isə Xalq artisti, operanın müəllifinin oğlu Yalçın Adıgözəlov olub.

Operanın təqdimatından sonra Yalçın Adıgözəlov deyib: "Natəvan" operasının Şuşada səslənməsi tarixi bir hadisədir. Bu gün bəstəkarın da ruhu şaddır. Çünki opera ilk dəfə Vasif Adıgözəlovun doğulduğu şəhərdə səsləndi. Bakıda dəfələrlə bu operanı səsləndirsək də, bu gün Şuşada bu sənət əsəri başqa bir ovqat yaratdı. Bundan gözəl nə ola bilər. Biz bu anı 30 ildir gözləyirdik. Bizi qarşıda böyük zəfərlər gözləyir, inanıram ki, yeni əsərlər yaradılacaq və bu əsərlər Zəngəzurda, Xankəndidə səslənəcək".

# "Xarıbülbül" festivalında Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olub



**Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində mayın 11-də Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri konsert proqramı ilə çıxış edib.**

AZƏRTAC xəbər verir ki, konsert proqramı Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra iki gün əvvəl açılışı olan Mehmandarovların malikanə kompleksində təşkil olunub. Ən diqqətçəkən məqamlardan biri də konsertə Mehmandarovlar nəslinin nümayəndəsi, Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Beynəlxalq müsabiqələr laureatı Mustafa Mehmandarovun dirijorluq etməsi olub.

Doğma ata-baba ocağında olmaqdan qürur hissi keçirdiyini deyən dirijor təəssüratlarını bizimlə bölüşüb: "Bildiyiniz kimi, bu günlərdə Şuşa möhtəşəm tədbirə evsahibliyi etdi. Belə bir tədbirin iştirakçısı olduğum üçün çox xoşbəxtəm. Hazırkı konsert proqramı da "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olundu. Açığını deyim, ağlıma gəlməzdi ki, nə vaxtsa Şuşada konsert verə bilərəm. Çalışdığım Üzeyir bəy Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin heyəti ilə reallaşan bu konsert şəxsən mənə də xüsusi zövq yaşatdı. Bu malikanənin yüksək səviyyədə təmir-bərpasına görə Prezidentimizə dərin təşəkkürümü bildirirəm. Malikanədə bütün işlər zövqlə, bütün incəliklə işlənilib. Ümid edirəm ki, bu məkan bundan sonra da adından göründüyü kimi, qonaqlar - mehmanlar üçün açıq olacaq, qonaqlı-qaralı olacaq, hər zaman bu məkanda möhtəşəm tədbirlər keçiriləcək. Eyni zamanda bizim tarixin də gələcək nəsillərə ötürülməsində bu məkan böyük rol oynayacaq".

Konsertdə Üzeyir bəy Hacıbəylinin "Arazbarı", Fikrət Əmirovun "Nizaminin xatirəsinə" simli simfoniyası, Niyazinin "Lirik rəqs"i, Tofiq Quliyevin "Laylay", Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından fraqmentlər və xalq mahnısı "Sarı gəlin" səsləndirilib.

Konsert proqramı maraqla qarşılanıb.

# "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının sonuncu günündə də maraqlı təqdimatlar olub



**Şuşada artıq 3-cü gündür ki, davam edən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının sonuncu günü də maraqlı təqdimatlarla yaddaqalandır.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalda mayın 11-də də Şuşanın müxtəlif məkanlarını əhatə edən tədbirlər zamanı "Natiq" ritm qrupunun, Ənvər Sadıqov və "Qaytağı" instrumental ansamblının çıxışları olub.



# İLHAM ƏLİYEVİN 10 günü

## Və Qarabağla Şərqi Zəngəzurda daha sürətlə başlayan yeni quruculuq mərhələsi















*Əvvəli 1-ci səh.*

### Bu il işğaldan azad olunmuş ərazilərin bərpasına 3 milyard manat ayrılıb

İlk növbədə işğaldan azad olunmuş ərazilərdəki quruculuq işləri Böyük Qayıdış proqramını tezləşdirir. Xatırladaq ki, 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən 2.2 milyard manat, 2022-ci ildə isə 2 milyard 670 milyon manat ayrılmışdı. Bu il üçün isə büdcədən 3 milyard manat ayrılıb.

Dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində vəsaitin xüsusi çəkisinin olması, Prezident İlham Əliyevin regionda görülən bərpa və yenidənqurma işlərinə birbaşa nəzarət etməsi, Qarabağa və Şərqi Zəngəzura mütəmadi səfərləri, təməlqoyma və açılış mərasimlərində iştirakı, görülən işlərlə yerində tanış olması bu ərazilərin bərpasının Azərbaycan dövlətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir.

Eyni zamanda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı"nın hazırlanması da bərpa prosesinin daha da sürətlənməsinə və Böyük qayıdışın həyata keçirilməsinə şərait yaradacaq.

Prezident İlham Əliyevin ötən il Qarabağ və Şərqi Zəngəzura 21 səfəri baş tutmuşdu ki, bunların hər birində ölkə rəhbəri müxtəlif müəssisə, kənd, obyekt və digər infrastruktur layihələrin əsasını qoymuş və hər səfərində görülən işlərin tikintisi ilə tanış olmuş və açılışlarını həyata keçirmişdi.

Vətən müharibəsindən dərhal sonra başladılan quruculuq işlərinin nəticəsi olaraq qısa müddət ərzində - 2020-ci ilin iyun ayında Zəngilanın Ağalı kəndinə ilk qayıdışa start verildi. Və bu köç mərhələli şəkildə bu günə kimi davam edir. İndiyə qədər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən Şərqi Zəngəzurun yeni yaşayış sahələrinə 86 ailənin - 420 nəfərin daimi məskunlaşması təmin olunub. Mart ayında isə köçürülmənin üçüncü mərhələsi yekunlaşıb.

Bundan başqa, bu ilin martında bayramdan əvvəl Tərtər rayonunun Talış kəndinə də qayıdış baş tutdu. Kənd sakinləri milli bayramlarını öz doğma dədə-baba kəndlərində qeyd etdilər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da Novruz tonqalını Talışda qaladı. Qeyd edək ki, Talış kəndinə ümumilikdə 20 ailə - 90 nəfər köçürülüb.

### Prezidentin bir ayda Qarabağ və Şərqi Zəngəzura səfərləri

Qarabağ və Şərqi Zəngəzurun bərpasını dövlət siyasətinin prioritet istiqaməti müəyyənləşdirən dövlət başçımızın bu il də işğaldan azad olunmuş ərazilərə səfərləri yaddaqalandır. İlham Əliyev son günlərdə Qarabağa və Şərqi Zəngəzura səfərləri zamanı bir çox obyektin açılış, təməlqoyma mərasimlərində iştirak etdi və bəzi layihələrin tikintisi ilə tanış oldu.

Belə ki, mayın 2-də Ağdama səfər edən Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, eyni zamanda inzibati binanın təməlini qoydu. Həmçinin Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış oldu.

Mayın 3-də Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda iştirak edən dövlət başçımız daha sonra Şərqi Zəngəzur iqtisadi rayonunun 4 və Qarabağın 2 rayonuna səfər etdi. İlk öncə ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılan Laçının Güləbird kəndinin əsasını qoydu. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Burada həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası da tikiləcək. Güləbirddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub icma, ailə və idman sağlamlıq mərkəzləri, habelə digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Daha sonra Qubadlıya səfər edən İlham Əliyev şəhərdə ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik məktəbin, 91 çarpayılıq mərkəzi xəstəxananın təməlini qoydu. Həmçinin Qubadlı rayonunun Xanlıq, Mahruzlu, Zilanlı kəndlərinin də əsası qoyuldu.

Qeyd edək ki, Xanlıq kəndində birinci mərhələdə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin, Mahruzluda 649 nəfərin məskunlaşdırılması üçün 145 evin, Zilanlıda 772 nəfərin məskunlaşdırılması üçün 159 evin tikilməsi planlaşdırılır. Gələcəkdə Zilanlıda 2520 nəfərin yaşaması nəzərdə tutulub. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Seləli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Perspektivdə Xanlığa 4 mindən çox, Mahruzluya isə 2700-dən çox sakinin köçürülməsi nəzərdə tutulub.

### Möhtəşəm quruculuq ünvanı

Prezidentin növbəti üz tutduğu rayon isə Zəngilan oldu. Zəngilan Konqres Mərkəzi, "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işləri ilə tanış olan dövlət başçımız bu şəhərdə inzibati binanın, hotel kompleksinin, rayon mərkəzi xəstəxanasının əsasını qoydu. Bundan başqa, Zəngilanın Cahangirbəyli kəndinin də təməlqoyma mərasimi keçirildi. Kənd perspektivdə 2520 nəfər əhalinin -573 ailənin yaşaması üçün planlaşdırılıb. Birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binalar da inşa olunacaq.

Elə həmin gün Cəbrayıl rayonuna səfər edən dövlət başçısı burada da təməlqoyma, açılış mərasimlərində iştirak etdi. Belə ki, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası"nda, məktəb binasının tikinti işləri ilə tanış olan Prezident 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını etdi.

Həmçinin Cəbrayılda Xudafərin qəsəbəsinin, Şükürbəyli və Horovlu kəndlərinin əsası qoyuldu.

Mayın 5-də isə Qarabağ iqtisadi rayonuna daxil olan Xocavənd rayonuna səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir sıra layihələrlə tanış oldular. Ölkə rəhbəri Tuğ kəndində İnzibati Mərkəzin, ilk yaşayış məhəlləsinin təməlinin qoyulmasında iştirak etdi. Həmçinin Hadrutda ilk yaşayış məhəlləsinin, inzibati mərkəzin əsası qoyuldu. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin və "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı baş tutdu.

Mayın 5-də dövlət başçısı və birinci xanımın üz tutduğu növbəti rayon Füzuli oldu. Füzuli-Hadrut avtomobil yolunun, Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışını edən, Pirəhmədli, Dədəli kəndlərinin, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin, içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin əsasını qoyan İlham Əliyev Füzulidə yaşayış kompleksi və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış oldu.

Mayın 8-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir daha Şuşaya səfər etdilər. Dövlət başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış oldular. Prezident və birinci xanım həmçinin Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak etdilər.

Mayın 9-da ölkə rəhbəri və birinci xanım Şuşada bir sıra açılış və təməlqoyma mərasimlərində iştirak etdilər. "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin və Atatürk küçəsinin, Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin, Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışı oldu. Dövlət başçımız Qarabağ küçəsində qeyri-yaşayış binasının təməlini qoydu, Qarabağ və Sadıqcan küçələrində, Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda həyata keçiriləcək işlər barədə Prezidentə məlumat verildi.

Azərbaycan Prezidenti həmçinin Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət etdi.

Ata vəsiyyətini böyük əzm, iradə, qürurla yerinə yetirən Müzəffər Ali Baş Komandan mayın 10-da Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümündə Şuşada xalqa müraciətindən sonra da ailə üzvləri ilə birgə bir sıra açılış və təməlqoyma mərasimlərində iştirak etdi.

Həmin gün Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində, Xurşidbanu Natəvan və Zəfər, Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki lövhələrin, Dəmir yumruq küçəsinin lövhəsinin, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin, Yaradıcılıq Mərkəzinin, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları oldu.

Ölkə rəhbəri həmçinin Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlini qoydu və 23 binadan ibarət yaşayış kompleksində aparılan, Şuşa şəhərində dövlət xidmətləri mərkəzinin yenidənqurma və təmir işləri ilə tanış oldu. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində burada təşkil edilən "Heydər Əliyev və Qarabağ" fotosərgisi, Gül Festivalı və Yuxarı Gövhər Ağa məscidinin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği - XIX əsrin ensiklopedik alimi" sərgisi ilə də tanış oldu.

Bütün bunlar mayın 2-dən Qarabağ və Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizin tezliklə bərpasına verdiyi önəmin göstəricisidir. Dövlət başçımız xalqa müraciətində bununla bağlı dedi: "Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik".

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev dahi lider Heydər Əliyevin Qarabağ və Şərqi Zəngəzuru azad görmək arzusunu reallaşdırdı. İndi isə İlham Əliyev həmin torpaqlara həm də firavanlıq, gözəllik, abadlıq bəxş edir. Yenidən qurur o torpaqları.

Beləliklə, Prezident İlham Əliyevin mayın 2-dən 10-na qədərki müddətdə Qarabağ və Şərqi Zəngəzura səfəri bərpa və quruculuğun sürətlə davam etdiyini bir daha göstərdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 30 illik işğaldan azad olunmuş torpaqlarımız elə mahir sərkərdənin rəhbərliyi ilə də sürətlə dirçəlir. Bütün bunlar isə Böyük qayıdışın tezliklə tam reallaşacağından, Qarabağ və Şərqi Zəngəzurun cənnətməkana çevriləcəyindən xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

# Azərbaycanda müasir vergi sisteminin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır

**Azərbaycanın dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir zaman kəsiyi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əldə etdiyi nailiyyətlər, sıçrayışlı inkişaf, yüksək sosial tərəqqi məhz Ümummilli Liderin təşəbbüsü ilə hazırlanan və həyata keçirilən iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində mümkün olub.**



Ulu Öndərin nəticəyə hesablanmış siyasəti sayəsində Azərbaycanın milli inkişaf strategiyasının ən mühüm parametrlərindən biri - güclü milli iqtisadiyyatın qurulması istiqamətində ciddi uğurlar əldə edilib. O cümlədən Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları da Ümummilli Liderin birbaşa təşəbbüsü ilə yaradılıb, onun rəhbərliyi altında vergi siyasətinin konseptual əsasları hazırlanıb. "Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" tezisi ilə vergilərin iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi aparıcı rolunu ehtiva edən Ulu Öndər vergi sistemində aparılacaq islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətlərini müəyyənləşdirib. Azərbaycanda vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması da bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun rəhbərliyi altında Vergi Məcəlləsinin ilkin layihəsi hazırlanaraq 2000-ci ildə qəbul edilib. Bu qanunvericilik aktı vergi inzibatçılığının mühüm bazası kimi təsbit olunub. Vergi administrasiyasının modernləşdirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi sayəsində vergi siyasətinin güclü və işlək mexanizmlərinin ilkin formalaşdırılması prosesi həmin dövrə təsadüf edir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sistemi son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında əsaslı modernizasiya prosesi keçib, maddi-texniki bazası genişləndirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub. Bu dövrdə vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə dövlət proqramı həyata keçirilib, vergi sisteminin geniş diapazonlu texniki imkanlara malik texnoloji bazası yaradılıb. Nəticədə ölkədə çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən müasir vergi xidməti formalaşıb.

Məhz Ulu Öndərin konseptual yanaşmasının Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilməsi nəticəsində vergi siyasəti təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, eyni zamanda ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməyə başlayıb.

## Vergi sisteminin maliyyə dayanıqlığında artan rolu

Vergi xidməti ölkənin büdcə gəlirlərinin formalaşması, iqtisadi inkişafın təmin edilməsi, sahibkarlığın dəstəklənməsi prosesində fəal iştirakçıdır. Bu gün dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergi ödəyicilərinə xidmətlər çeşidinin və biznesin fəaliyyətinə effektiv vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının fəaliyyətinin başlıca prioritetlərini təşkil edir.

İqtisadi artımın bərpasında vergi təşviqi alətləri iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Vergilərin ölkənin maliyyə dayanıqlığının təmin edilməsində rolu ildən-ilə artır. Təkcə onu göstərmək kifayətdir ki, 2022-ci ildə ümumilikdə Dövlət Vergi Xidmətinin üzərinə düşən fiskal yığımların həcmi ölkə üzrə bütün fiskal yığımların 78,9 faizini təşkil edib. Bu göstərici dövlətimizin büdcə ehtiyaclarının təmin edilməsində vergilərin artan rolunun bariz sübutudur. Büdcənin cari xərclərinin örtülməsində vergi daxilolmalarının artan payı Dövlət Neft Fondundan büdcəyə transferlərin azaldılmasına da imkan verir.

## "Kölgə iqtisadiyyatı" ilə mübarizə və iqtisadiyyatda şəffaflıq

Ölkə iqtisadiyyatının sürətli inkişafı vergi sistemi qarşısında da yeni çağırışlar yaradır. Əgər 2018-ci ilə, yəni vergi sistemində "yeni keyfiyyət başlanğıcı" adlandıra biləcəyimiz dövrün əvvəlinə qayıtsaq, son 5 ildə istər vergi sistemində, istərsə də biznes-dövlət münasibətlərində və biznesin fəaliyyəti kontekstində böyük dəyişiklikləri müşahidə edə bilərik.

Son illər qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının dinamik artımında və vergitutma bazasının genişlənməsində "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və şəffaflaşma ən mühüm amil kimi təsbit edilib. Bu dövrdə biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub.

2022-ci ildə qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının nominal artım tempi 27,9, 2023-cü ilin birinci rübündə 16,4 faiz olub. Bu, həmin sektorda vergi yığımı bazasını təşkil edən ÜDM-nin nominal artım tempini, yəni 2022-ci il üzrə 21,6 faiz, 2023-cü ilin birinci rübü üzrə 15,4 faizlik artımı üstələyir. Cari ilin birinci rübündə vergi daxilolmaları ötən illə müqayisədə 74,8 faiz artıb. Beləliklə, iqtisadiyyatda şəffaflaşma amilinin davamlı bir şəkildə irəlilədiyinin şahidi oluruq.

Biznesin fəaliyyətində müşahidə edilən digər göstəricilər də bu qənaəti möhkəmləndirir. Vergi orqanlarının informasiya bazalarına əsaslanan dəyərləndirmələrinə diqqət yetirsək, görə bilərik ki, 2022-ci ildə əvvəlki illə müqayisədə qeyri-neft sektoru üzrə dövriyyə 22,6 faiz, ƏDV üzrə dövriyyə 21,7 faiz, elektron qaimə-faktura üzrə dövriyyənin həcmi isə 26 faiz artıb. 2023-cü ilin birinci rübü üzrə bu göstəricilər isə belədir: qeyri-neft sektoru üzrə dövriyyə 11,3, ƏDV üzrə dövriyyə 11,4, elektron qaimə-faktura üzrə dövriyyənin həcmi isə 31,6 faiz artıb. Bütün bu göstəricilər sözügedən sektorda şəffaflaşmanı ifadə edən indikatorlardır.

İqtisadi aktivlik, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması istiqamətində aparılan işlər bir çox sahədə fəaliyyətin leqallaşmasına, aktiv ödəyici kateqoriyasının artmasına imkan verib. ƏDV ödəyicilərinin sayında müşahidə olunan artım isə fiskal baxımdan xüsusilə aktualdır. 2022-ci ildə aktiv vergi ödəyicilərinin sayı 7, aktiv ƏDV ödəyicilərinin sayı 15,1, aktiv obyektlərin sayı isə 3,2 faiz artıb. 2023-cü ilin 1-ci rübündə isə bu göstəricilərdə artım müvafiq olaraq 1,7, 3,9 və 1,2 faizdir. Bu ilin aprel ayına aktiv vergi ödəyicilərinin sayı 724 mindən çox olub.

Əmək bazarının "ağardılması" məqsədilə əmək haqları üzrə 2019-cu ilin əvvəlindən tətbiq olunan vergi güzəştləri sayəsində qeyri neft-qaz sektorunda əmək müqavilələrinin sayı mayın 1-i tarixinə 313 mindən çox artıb ki, bu da islahatın ortamüddətli dövrdə səmərəliliyinə dəlalət edir. Əmək müqavilələrinin sayının artımının təsiri ilə əməkhaqqı fondunun böyüməsi sosial sığorta haqlarının yığım bazasının genişlənməsinə səbəb olur və nəticədə Dövlət Sosial Müdafiə Fondunun büdcədən maliyyə asılılığı azalır. Əgər 2018-ci ildə fondun gəlirlərində büdcədən transferin xüsusi çəkisi 36 faizə yaxın idisə, 2022-ci ildə bu göstərici 20 faizdən aşağı enib. İqtisadiyyatda daha bir şəffaflaşma kimi, könüllü vergi daxilolmalarının 2023-cü ilin birinci rübü üzrə 96 faizə çatmasını göstərmək olar.

## Rəqəmsal xidmətlər və yeni layihələr

Vergi inzibatçılığının təkmilləşdirilməsi, iqtisadi sistemin yeni çağırışlarına uyğun müasir rəqəmsal platformaların tətbiqi istiqamətində həyata keçirilən tədbirlər davam edir. Bu baxımdan xidmət keyfiyyətinin və vergi ödəyicilərinin rahatlığının yüksəldilməsi üçün interaktiv xidmətlərin inkişafı və təmassız xidmət əsas prioritetlərdəndir.

Ölkəmizdə həyata keçirilən "Əlverişli Biznes Mühiti" layihəsinin 2 mühüm indikatoru - "Biznesə başlama" və "Vergitutma" indikatorları üzrə işçi qruplarına Dövlət Vergi Xidməti rəhbərlik edir. Ötən il hər iki işçi qrup digər dövlət strukturları ilə birgə sözügedən sahələrdə təkmilləşdirmə prosesi üzrə intensiv fəaliyyətə başlayıb. Yol xəritələrində nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması tezliklə bu sahədə ciddi yeniliklərə gətirib çıxaracaq.

Hazırda İnternet Vergi İdarəsinin yeni e-portal layihəsi üzərində işlər davam edir. Bu portal müasir standartlara cavab verən, vergi ödəyicisi üçün daha sadə, əlçatan yeni elektron kabinetin (internet portalının) yaradılmasını nəzərdə tutur. Həmçinin layihə çərçivəsində bəzi yeni xidmətlərin tətbiqi planlaşdırılır ki, bu da vergi ödəyiciləri üçün böyük fayda gətirəcək, könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə xidmət edəcək. Eyni zamanda vergi ödəyiciləri üçün elektron kabinetin mobil tətbiqi üzərində də iş aparılır. Bu, vergi ödəyicilərinin bir sıra əməliyyatlarının mobil tətbiq üzərindən sadə şəkildə icrasının təmin edilməsinə, İnternet Vergi İdarəsinin imkanlarından daha rahat istifadəyə nail olunmasına, vergi, sosial sığorta və icbari tibbi sığorta ilə bağlı öhdəliklərin vaxtında icrasına imkan verəcək.

Hazırda bir sıra interaktiv elektron xidmətlərin yaradılması istiqamətində də tədbirlər görülür. Bu sırada yeni elektron xidmətlər vasitəsilə vergi qanunvericiliyinin tətbiqi ilə bağlı yanaşmaları, habelə inzibati şikayətlər üzrə formalaşmış təcrübədən irəli gələn rəsmi mövqeləri əks etdirən resurs istifadəyə veriləcək. Beləliklə, rəqəmsal həllərə söykənən bu dəyişikliklər və imkanların yaradılması vergi ödəyicilərinin vaxt itkisinin və lüzumsuz prosedurların aradan qaldırılmasına gətirib çıxaracaq.

## Vergi xidməti yeni çağırışlar qarşısında

Ölkədə iqtisadi artımın təmin edilməsi prosesində vergi sisteminin tənzimləyici funksiyaları mühüm rol oynayır. Qarşıdakı dövrdə vergi siyasətinin əsas hədəfləri ilk növbədə iqtisadi təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsipləri əsasında reallaşdırılacaq. İqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi siyasətinin tənzimləyici rolu davam etdiriləcək, "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin aparılması yenə də əsas prioritet olacaqdır. Vergi inzibatçılığının keyfiyyətinin artması şəraitində qarşıda duran fiskal öhdəliklər üzrə proqnozların icra edilməsi, vergi ödəyicilərinə xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, risk əsaslı nəzarət sisteminin genişləndirilməsi, ortamüddətli perspektiv üçün vergi siyasəti üzrə hədəflərin həyata keçirilməsi əsas istiqamətlərdir.

Vergi sistemində rəqəmsallaşma səviyyəsi və rəqəmsal inzibatçılıq daha da dərinləşdiriləcək. Sayı artaraq 724 mini keçmiş aktiv vergi ödəyicilərinə münasibətdə effektiv nəzarətin qurulması yalnız bu yolla mümkündür. Vergi xidmətinin insan resursları müvafiq rəqəmsal alətlərə malik olmaldır ki, vergi ödəyicilərinin fəaliyyətini nəzarətdə saxlamaq, vergidən yayınma hallarının qarşısını almaq mümkün olsun. Bu baxımdan vergi xidmətinin rəqəmsallaşma səviyyəsi və dərinliyi artırılacaq.

Beləliklə, vergi siyasətinin iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafında, böyüməsində və güclənməsində iştirakı artmaqda davam edir. Ekosistemin keyfiyyətinin yaxşılaşdırılması, sabit, şəffaf və rəqabətli olması vergi siyasəti vasitəsilə dəstəklənəcək.

Bir sözlə, müasir vergi sistemi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi konsepsiyaya əsasən, təkcə iqtisadiyyatımızın maliyyə dayaqlarının möhkəmləndirilməsinə deyil, həm də ölkəmizdə sahibkarlığın inkişafı və tərəqqisinə xidmət edəcək.

***Orxan NƏZƏRLİ,***
*İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri*

# Gəncədə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi təntənə ilə qeyd edilmişdir





**Müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Gəncədə böyük təntənə ilə qeyd edilmişdir.**





Gəncə Dövlət Filarmoniyasında keçirilən tədbirdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin və Gürcüstanın Gəncədəki baş konsulları Recep Öztop və Nikolos İaşvili, Quru Qoşunların komandanı, general-leytenant Ənvər Əfəndiyev, Milli Məclisin deputatları, idarə, müəssisə, təşkilatların və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

İştirakçılar əvvəlcə Heydər Əliyevin Gəncənin baş meydanındakı abidəsini ziyarət etmişlər. Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Niyazi Bayramov Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdəki fəaliyyətindən danışaraq diqqətə çatdırmışdır ki, Ulu Öndər tarixi şəxsiyyət olmazdan əvvəl həm də tarix yaradan şəxsiyyət olmuşdur: "Onun yaratdığı tarix 50 milyondan artıq azərbaycanlının qürur mənbəyidir. Heydər Əliyevin bioqrafiyası ilə Azərbaycan tarixi bir-birini tamamlayır. Ulu Öndər Heydər Əliyevin doğum günü də tariximizin ən parlaq məqamlarındandır".

Niyazi Bayramov daha sonra demişdir ki, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirdi: "Xalqımız Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu gün öndərimiz aramızda olmasa da, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, hətta bizdən öndə addımlayır, yaşayır, yaradır".

Sonra "Əsrin adamı" adlı sənədli film nümayiş etdirilmişdir.

Rəsmi hissədən sonra AMEA-nın Gəncə bölməsi tərəfindən nəşr olunan "Heydər Əliyev və Gəncə" adlı monoqrafiyanın təqdimatı keçirilmişdir. Nəfis tərtibatla nəşr olunan kitabda Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Gəncəyə səfərləri barədə məlumat, bu səfərlər zamanı Ümummilli Liderin çıxışlarının mətnləri, Gəncədən olan elm, təhsil, səhiyyə və mədəniyyət xadimlərinin Ulu Öndərlə bağlı xatirələri, həmçinin dünyanın görkəmli şəxsiyyətlərinin Heydər Əliyevlə bağlı fikirləri yer almışdır.

Yubileylə bağlı tədbir Heydər Əliyev Park-Kompleksində böyük bayram konserti ilə davam etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ulu Öndərin xatirəsi həmişə əziz tutulur

**Mayın 10-da Göygöl rayonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş ümumrayon tədbiri keçirilmişdir.**



Tədbirdə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, xidmət sahələrinin rəhbərləri, hərbçilər, ağsaqqallar, ziyalılar, YAP fəalları, şəhid ailələri, qazilər, gənclər və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüşlər. Sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlara baxmışlar.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev məruzə ilə çıxış edərək diqqətə çatdırmışdır ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dövlətimizi zamanın mürəkkəb tarixi sınaqlarından uğurla çıxararaq müstəqilliyimizi əbədi və dönməz etmişdir. Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı və yüksək vətənpərvərliyi sayəsində xalqımızı vahid amal ətrafında birləşdirərək azərbaycançılıq ideologiyasının formalaşmasına nail olmuşdur.

Sonda Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş "Əsrin adamı-100" sənədli filmi nümayiş etdirilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi xarici mətbuatda



















**Dünyanın siyasi tarixində özünəməxsus yeri olan, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi nüfuzlu xarici KİV tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, KİV-də yayımlanan məqalələrdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən söz açılıb, onun dünyanın böyük siyasət və dövlət xadimləri ilə bir sırada dayandığı qeyd edilib.

Türkiyənin **"Anadolu"** agentliyində yayımlanan "Azərbaycanın Ulu Öndəri Heydər Əliyev anadan olmasının 100-cü ildönümündə anılır" sərlövhəli məqalədə "Şəxsiyyətin ölkənin və xalqın tarixində oynadığı rolu Heydər Əliyevin həyatının timsalında dərk etmək mümkündür" fikri xüsusi vurğulanıb. Məqalədə Ulu Öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif məqamları, sovet dövründə Azərbaycana rəhbərlik etdiyi, daha sonra SSRİ-də yüksək vəzifədə çalışdığı dövr ətraflı işıqlandırılıb. Həmçinin əbədiyaşar liderin müstəqil Azərbaycanın Prezidenti kimi, respublikanın daxili və xarici siyasətdə qazandığı uğurlarda misilsiz xidmətləri diqqətə çatdırılıb, Ulu Öndərin Türkiyənin dövlət başçıları ilə görüşlərindən söz açılıb.

"Anadolu" agentliyinin türkdilli versiyasında yer alan xəbərdə isə Türkiyənin Poçt və Teleqraf Təşkilatının Ümummilli Liderin 100 illik yubileyi münasibətilə xatirə əsginası və xüsusi zərf çap etdirdiyi vurğulanıb. Bildirilib ki, bu əsginas Poçt və Teleqraf Təşkilatının muzeyində nümayiş etdiriləcək.

Türkiyənin **"TRT Haber"** kanalının saytında yayımlanan məqalədə isə 80 illik ömrünü xalqına xidmətə həsr etmiş Heydər Əliyevin Azərbaycanın ən çətin anlarında xalqının yanında olduğu, doğma Vətənini hər cür bəlalardan qoruyaraq dinamik inkişaf yoluna çıxardığı bildirilib. Məqalədə Azərbaycan xalqının böyük oğlunun xatirəsini daim ən dərin ehtiramla yad etdiyi vurğulanıb, 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu, ilin əvvəlindən başlayan silsilə tədbirlərin il ərzində davam etdiriləcəyi əksini tapıb.

**"Haber Global"** televiziyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə İstanbul, Ankara və digər şəhərlərdə keçirilən silsilə tədbirlərdən söz açılıb, türk dünyasının böyük oğlu, Ümummilli Liderin xatirəsinin qardaş ölkədə də ən yüksək ehtiramla yad edildiyi vurğulanıb.

Türkiyənin **"Milliyet", "Hürriyet"** və digər xəbər saytlarında yer alan xəbərlərdə də Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərindən söz açılıb.

İtaliyanın aparıcı kütləvi informasiya vasitələrində Azərbaycan xalqının dahi lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar məqalələr dərc olunub. **"Il Sole 24 Ore" televiziyasının, "Libero", "Notizie Tiscali", "Askanews", "Insideover", "Agenzia Nova"** informasiya agentliklərinin yaydığı materiallarda Ümummilli Liderin xilaskarlıq və quruculuq missiyasından, Azərbaycan xalqının ictimai-siyasi həyatında və dövlətçilik tarixindəki misilsiz rolundan bəhs edilib. Ulu Öndərin Azərbaycanın neft-qaz siyasətinin formalaşmasındakı xidmətləri, eləcə də dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində reallaşan və ölkəmizin dünya enerji təchizatında strateji oyunçu kimi rolunu artıran "Əsrin müqaviləsi"nin əhəmiyyəti vurğulanıb. Yazılarda Heydər Əliyevin 1997-ci ildə müstəqil Azərbaycanın ilk Prezidenti kimi İtaliyaya səfərinin əhəmiyyəti, Ümummilli Liderin Azərbaycan-İtaliya münasibətlərinin inkişafındakı xüsusi rolu qeyd olunub. Bildirilib ki, hazırda Azərbaycan-İtaliya əlaqələri çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib, TAP boru kəməri sayəsində ölkəmiz Avropanın, eləcə də İtaliyanın etibarlı enerji təminatçısıdır.

Məqalələrdə ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanovun fikirlərinə yer verilib. Diplomat Ulu Öndərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təminatındakı rolunu, çoxvektorlu xarici və enerji siyasətinin əhəmiyyətini qeyd edib, xalqımızın Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirdiyini bildirib.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi Bolqarıstan mətbuatında da geniş işıqlandırılıb. Bu ölkənin müxtəlif xəbər saytlarında, o cümlədən **"Cross.bg", "novini247"**-də yayımlanan məqalələrdə Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi, zəngin idarəçilik təcrübəsi və siyasi müdrikliyi ilə tam bir dövlətçilik dahisi olduğu bildirilir. Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi ilk illərdə Ermənistanın hərbi təcavüzünə məruz qaldığı, suveren ərazilərinin 20 faizinin işğal edildiyi, etnik təmizləmə nəticəsində kütləvi şəkildə qaçqın və məcburi köçkün problemi ilə üzləşdiyi bir zamanda məhz Heydər Əliyevin səyləri ilə məhv olmaq təhlükəsindən qurtulduğu qeyd edilib. Ümummilli Liderin başlatdığı hərtərəfli islahatlar sayəsində müstəqil Azərbaycanın müasir və dinamik inkişaf edən güclü dövlətə çevrildiyi bildirilib, habelə onun müəllifi olduğu enerji strategiyasının Azərbaycanı çiçəkləndirməklə yanaşı, o cümlədən beynəlxalq miqyasda ölkəmizin etibarlı tərəfdaş kimi tanınmasına əsas yaratdığı diqqətə çatdırılıb. Məlumatlarda Heydər Əliyevin daxili siyasətinin Azərbaycana sabitlik gətirdiyi, xarici siyasətinin isə çoxsaylı dost və tərəfdaşlar qazandırdığı və Bolqarıstanın da bu dövlətlərdən biri olduğu göstərilmiş və bu əlamətdar tarixdə Heydər Əliyevin xatirəsinin bütün dünyada yaşayan azərbaycanlılar tərəfindən dərin hörmət və ehtiramla anıldığı qeyd edilib.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə silsilə materiallar Rusiya mətbuatında da dərc olunub. Dövlət Dumasının rəsmi orqanı olan **"Parlamentskaya qazeta"**da yayımlanan "Heydər Əliyev: problemləri görən lider" sərlövhəli məqalədə Heydər Əliyevin Azərbaycanın simvolu olduğu vurğulanıb. Qəzet yazıb ki, Heydər Əliyev SSRİ-nin ən parlaq rəhbərlərindən biri olub. "Onu başqalarından fərqləndirən və ona sovet vətəndaşları arasında populyarlıq qazandıran cəhət şəxsi ünsiyyətə üstünlük verməsi, problemləri yerində həll etmək bacarığı idi", - deyə məqalədə vurğulanır.

**"Rossiyskaya qazeta"** nəşri "Heydər Əliyev: tarixi şəxsiyyət" məqaləsində Ulu Öndərin fəaliyyətinin Moskva dövründən söhbət açarkən Heydər Əliyevi ən irimiqyaslı qlobal problemləri həll etməyə qadir şəxsiyyət kimi səciyyələndirib. Qəzet Heydər Əliyevi "Azərbaycanın Atatürkü" adlandıraraq yazır ki, onun rəhbərlik etdiyi dövrdə Azərbaycanda köklü dəyişikliklər baş verib: "Məhz Heydər Əliyevin timsalında şəxsiyyətin tarixdə necə rol oynadığını görmək olar. İndi Azərbaycan Şərq və Qərb sivilizasiyaları arasında etibarlı körpü rolunu oynayır, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib".

**"Ura.news"** nəşri Ulu Öndər Heydər Əliyevin Azərbaycan-Rusiya münasibətlərində rolunun təhlilinə geniş yer verib, görkəmli şəxsiyyətlərin onun haqqında xatirələrini bölüşüb.

**"Komsomolskaya pravda"** qəzetində dərc olunmuş "Çiçəklənən Azərbaycanın təməlini qoymuş Heydər Əliyevin 100 illiyi qeyd edilir" adlı məqalədə deyilir ki, müasir Azərbaycanı Heydər Əliyevsiz, onun tarixi irsi olmadan təsəvvür etmək mümkün deyil: "Məhz onun 90-cı illərdə hakimiyyətə qayıdışı ilə ölkə daxili qanlı münaqişələrdən xilas ola bildi, əsl müstəqillik yoluna qədəm qoydu. Bu isə heç də asan deyildi. Axı suverenliyi qoruyub saxlamaq və inkişaf etdirmək onu əldə etməkdən daha çətindir".

Rusiyanın **"Rossiya-1"** telekanalı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tamaşaçılarına Saida Medvedevanın çəkdiyi sənədli filmi təqdim edib. Filmdə vurğulanır ki, Heydər Əliyev müasir Azərbaycanın simvoludur. O, ürəkdən xidmət etdiyi Azərbaycanı güclü, nüfuzlu dövlətə çevirib, xalqı birləşdirib.

**"News.ru"** nəşrinin "Müdrik və uzaqgörən lider: Heydər Əliyev tarixin yaddaşında necə qalıb?" adlı məqaləsində 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu bildirilir. Nəşr yazır ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkənin yüksəliş dövrü olub. Məqalədə Rusiya xarici işlər nazirinin keçmiş müavini Qriqori Karasin, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova, 2001-2009-cu illərdə Moldovanın Prezidenti olmuş Vladimir Voronin və başqalarının Heydər Əliyev haqqında fikirləri yer alıb.

**"Moskovskiy komsomolets"** qəzetindəki "Əliyev Azərbaycanın əfsanəsidir" məqaləsində yazılıb ki, Azərbaycanın tarixində 15 İyun Milli Qurtuluş Günü adlanır. Azərbaycan cəmiyyəti xaos və vətəndaş müharibəsi astanasında olduğu bir vaxtda məhz həmin gün Heydər Əliyev hakimiyyətə gəlib, ölkəni bu bəlalardan xilas edib. Materialda politoloqlar Fuad Axundov və Sergey Markovun Ulu Öndər barədə sözləri təqdim olunur.

**"Nezavisimaya qazeta"** Qriqori Bondarevin "Heydər Əliyevin hakimiyyət formulu dəyişən epoxaların çağırışlarına cavab kimi" adlı məqaləsini dərc edib. Müəllif yazır: "Müasir Azərbaycanın banisi Heydər Əliyevin idarəçilik formulunu çox zaman sovet dövrünün süqutu zamanı sistemli modernləşmə zərurətindən irəli gələn çağırışlara cavab adlandırırlar". Məqalədə Ulu Öndərin SSRİ və Azərbaycan tarixindəki rolundan, Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsində xidmətlərindən bəhs edilir.

**"İnfo24"** internet nəşri Qarabağın azad edilməsini Heydər Əliyevin 100 illik yubileyinə ən yaxşı töhfə adlandırıb. Nəşrin Ulu Öndərin yubileyi ilə bağlı hazırladığı materialda hərbi ekspert İqor Korotçenko, Rusiyanın Xalq artisti Aleksandr Kalyaginin fikirləri əksini tapıb.

**"Arqumentı i faktı"** qəzeti Ümummilli Liderin yubileyinə həsr etdiyi məqaləni "Heydər Əliyev. Siyasətçi necə əfsanəyə çevrilir" sərlövhəsi ilə dərc edib. Məqalədə qeyd olunur ki, Heydər Əliyev hakimiyyətə qayıdışından sonra Azərbaycanda sovet dövründən qalan yaxşı nə vardısa, qoruyub saxlamağa və onları yeni inkişaf variantları ilə birləşdirməyə çalışıb. "1994-cü ilin yazında o, Qarabağda münaqişəni, ölkədə daxili siyasi qarşıdurmaları dayandırmağı bacardı. Bununla da ölkənin dirçəliş dövrü başladı. Azərbaycanın yüksəliş dövründə dünyasını dəyişdi və ölümündən sonra əfsanəyə çevrildi", - deyə məqalədə bildirilir.

**"Mejdunarodnaya jizn"** jurnalının Ulu Öndərə həsr olunmuş məqaləsində bildirilir ki, bu gün müstəqil Azərbaycanın banisi Heydər Əliyevin 100 illik yubileyi qeyd olunur. O, mürəkkəb yol keçib və hər zaman öz xalqına sadiq qalıb.

Rusiyanın **Birinci televiziya** kanalının Ümummilli Liderin yubileyi münasibətilə hazırladığı süjetdə Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışılıb. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu tamaşaçılarla öz xatirələrini bölüşüb.

Küveyt mediası da Ulu Öndər Heydər Əliyevə həsr olunmuş məqalələr dərc edib. Bu ölkənin ərəbdilli kütləvi informasiya vasitələrində - **"əl-Nahar", "əl-Qabas", "əl-Vasat", "əl-Ray", "əl-Ənba", "əl-Cəridə"** qəzetlərində, **"q8-press.com" və "dasmannews.com"** elektron xəbər portallarında və ingilisdilli **"kuwaittimes.com"**, **"timeskuwait.com"** və həmin KİV-in sosial şəbəkələrində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə dair geniş məqalələr dərc edilib. Məqalələrdə 1994-cü il dekabrın 13-də Ümummilli Lider Heydər Əliyevin Mərakeşdə İslam Əməkdaşlıq Təşkilatının Sammiti çərçivəsində Küveyt Əmiri Şeyx Cabir Əl-Əhməd Əl-Sabah ilə görüşü ilə iki ölkə arasında əlaqələrin əsasının qoyulduğu vurğulanıb. Yazılarda həmçinin Ulu Öndər Heydər Əliyevin sovet dövründə və müstəqillik illərində zəngin siyasi fəaliyyəti barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, Heydər Əliyev islam dövlətləri ilə əlaqələrin inkişafına və islam həmrəyliyinə həmişə böyük önəm verib. Onun hələ SSRİ rəhbərliyində çalışarkən - 1982-1987-ci illərdə Misir, Suriya, İordaniya, Liviya, İraq, Yəmən, Pakistan və başqa müsəlman ölkələrinə səfərləri Ulu Öndərin bütün islam aləmində aparıcı siyasətçilərdən biri kimi tanınmasına səbəb olub. Eləcə də Ulu Öndərin Azərbaycanın müstəqillik illərində siyasi fəaliyyəti barədə də ətraflı məlumat verilib, onun Azərbaycanı ən çətin sınaqlardan məharətlə çıxararaq, sürətlə inkişaf edən ölkəyə çevirdiyi bildirilib.

Omanın nüfuzlu **"Hibr əl-Vətən"** jurnalında da Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş məqalə dərc edilib. Məqalədə Azərbaycan xalqının və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların dahi siyasətçi, Azərbaycanı parçalanma və məhv olma təhlükəsindən xilas edərək inkişaf və əmin-amanlıq yoluna çıxaran Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyi bildirilib. Omanlı oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Yazıda vurğulanıb ki, Heydər Əliyevin fədakarlıqla dolu həyatının hər bir anı Azərbaycan xalqı üçün iftixar mənbəyi və milli sərvətdir. Müəllif vurğulayıb ki, Ulu Öndər istər sovet hakimiyyəti, istərsə də müstəqillik illərində öz xalqının gələcəyi, rifahı və əmin-amanlığı üçün çalışıb. O, SSRİ-nin ali hakimiyyət orqanı olan Siyasi Büronun üzvü seçilib, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Heydər Əliyev həmin vəzifələrdə də doğma Vətəni naminə böyük işlər görüb.

Səudiyyə Ərəbistanı, Misir, Əlcəzair, İordaniya, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu KİV-ində, o cümlədən **"Qarbnews", "Qitafnews, "Asiaelyoum", "Alhadath", "Mesrena", "Mostaklon", "mebusiness.ae"** nəşrləri Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş məqalələr dərc edib. Yazılarda Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açılıb, onun adının Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığı vurğulanıb. Qeyd edilib ki, məhz bu xidmətlərinə görə Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının Ümummilli Lideri kimi ən yüksək ehtiramla yad olunur.




























# Zəfər zirvəsində "Xarıbülbül" təntənəsi




**"...Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" Musiqi Festivalı Şuşada hər il keçiriləcək". 2021-ci il mayın 12-də mədəniyyət paytaxtımız Şuşada təşkil edilən möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının açılışındakı çıxışında Prezident İlham Əliyev vurğulamışdı bu sözləri. Dövlət başçısı bir daha bəyan etmişdi ki, ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər: "Şuşa Azərbaycan ruhunu qoruya bildi".**

Azadlığının üzərindən cəmi altı ay keçdikdən sonra, düz 30 illik ayrılığın ardından Şuşanın rəmzi sayılan "Xarıbülbül" Musiqi Festivalının yenidən qədim şəhərimizdə keçirilməsi mədəniyyət paytaxtımızın tarixi ənənələrini də qürurla bərpa etməsinin möhtəşəm təcəssümü oldu.

## 30 ilin o üzündəki "Xarıbülbül"

"Xarıbülbül" Musiqi Festivalı ilk dəfə 1989-cu ildə Şuşa şəhərində məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar keçirilməyə başlayıb. Həmin ilin mayında Cıdır düzündə keçirilən festivalda yerli ifaçılarla yanaşı, Qırğızıstan, Qazaxıstan, Başqırdıstan, Litva və Belarusdan da musiqi qrupları iştirak edib.

1990-cı ildən "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Həmin vaxt festivala Hollandiya, Almaniya, İsrail, Türkiyə kimi xarici ölkələrdən folklor qrupları dəvət olunub.

1991-ci ildə keçirilən 3-cü festivalda 25 ölkədən 300-ə yaxın insan iştirak edib. İkinci və üçüncü festivalların yekun konsertləri Bakıda Heydər Əliyev Sarayında təşkil olunub.

Növbəti, daha çox ölkəni və iştirakçını əhatə edəcək "Xarıbülbül" festivalının 1992-ci il mayın 15-də keçirilməsi planlaşdırılsa da, murdar xislətli ermənilərin işğal siyasətləri buna imkan vermədi. Həmin il mayın 8-də Qarabağın ürəyi Şuşa işğal altına düşdüyü üçün "Xarıbülbül" də doğma diyarından didərgin düşdü və festival yalnız qısa müddətdə Ağdam şəhərində, İmarətdə keçirildi.

Ondan sonra isə düz 29 il ərzində bir daha Azərbaycanda "Xarıbülbül"ün xoş sədası eşidilmədi, ta ki 2021-ci il mayın 12-nə qədər...

## Cıdır düzündən bütün Qarabağa muğamın sədası yayılır

Vətən müharibəsində qazandığımız şanlı zəfər sayəsində Qarabağın baş tacı Şuşa anbaan dirçəlib, sürətlə bayram coşqulu günlərinə dönüb.

İndi Şuşada dirçələn yeni həyatla birgə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı da əvvəlki tarixi şöhrətini özünə qaytarıb, yenidən Şuşanın zirvələrindən, Cıdır düzündən ruhumuza məlhəm kimi yayılan Azərbaycan muğamının zəngulələri eşidilir. Azadlığından sonra Heydər Əliyev Fondu tərəfindən Şuşada ilk dəfə təşkil olunan "Xarıbülbül" Musiqi Festivalının ilk günündə jurnalistlərlə söhbəti zamanı qalib lider İlham Əliyev bu barədə söyləmişdi ki, bir il bundan əvvəl burada başqa musiqi səslənirdi, başqa hərəkətlər edilirdi. O hərəkətlərə görə, bütün cinayətlərə görə düşmən öz layiqli payını aldı: "Bundan sonra burada ancaq Azərbaycan musiqisi, Azərbaycanda yaşayan xalqların musiqisi səslənəcək. Doğrudan da, böyük tarixi nailiyyətdir".

2021-ci ildə Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" Musiqi Festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edildi. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq, hər bir kəsin vahid Vətəni olduğu mesajını verdilər.

Şuşada 2022-ci ildə də möhtəşəm "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirildi.

"Şuşa ili"ndə keçirilən növbəti festivalda xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatıldılar, Qarabağın baş tacından dünyaya dostluq, qardaşlıq və barış ismarışı verdilər.

## Türk dünyasının qüruru

Xarıbülbülün çiçəklədiyi ətirli yaz günlərində, bu ilin 9-11 may tarixlərində Zəfər qalamız Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı yenidən sevinclə dünyanı başına topladı. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən budəfəki festivalda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan nümayəndələri təmsil olundular. Budəfəki festival TÜRKSOY-a daxil olan dövlətlər, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivlərinin iştirakı ilə əlamətdar oldu.

1752-ci ildə Pənahəli xan tərəfindən təməli qoyulan qədim qala şəhərimiz yeni-yeni şərəfli titullara da layiq görülür. Şuşa şəhəri 2023-cü ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Bu həm də tarixi Azərbaycan şəhəri Şuşanın bütün türk dünyasının qürur ünvanı olmasından xəbər verir.

## Heydər Əliyev və Qarabağ

Ulu Öndər Heydər Əliyevin 100 illiyi ərəfəsində zəfər zirvəmizdə təşkil olunan builki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının isə başqa bir təmtərağı oldu.

Festival çərçivəsində mayın 9-da Cıdır düzündə konsert proqramı təqdim olundu. Konsert proqramında TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivlərinin təqdimatında bir-birindən maraqlı ifaları dinlənildi. İncəsənət ustaları təmsil etdikləri ölkə və regionun musiqi mədəniyyətini tamaşaçılara təqdim etdilər. Sonda türk dünyasının solistləri birlikdə "Qarabağ" kompozisiyasını ifa etdilər.

Mayın 10-da isə Cıdır düzündə qala-konsert oldu. Qala-konsertdə festivalda iştirak edən ölkələrin incəsənət ustaları çıxış etdilər. Konsert çərçivəsində "Xarıbülbül" kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiyası, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları təqdim edildi.

Qala-konsert bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatdı.

Festival çərçivəsində növbəti konsert Mehmandarovların malikanə kompleksində Ulu Öndər Heydər Əliyevə həsr olunan "Ümummilli Lider Heydər Əliyev - sevimli mahnılar" adlı konsert proqramı oldu. Konsertdə Ümummilli Lider Heydər Əliyevin sevdiyi mahnılardan ibarət musiqi parçaları səsləndirildi.

"Xarıbülbül" festivalının qonaqları Şuşadakı Heydər Əliyev Fondu tərəfindən mayın 10-da açılışı olan Yaradıcılıq Mərkəzinin ekspozisiya salonunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış oldular.

Eyni zamanda sözügedən tarixdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qonaqları, dövlət və hökumət rəsmiləri, tanınmış mədəniyyət, incəsənət və elm xadimləri Şuşa şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə nümayiş olunan "İz" adlı sənədli filmə tamaşa etdilər.

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının ikinci günü Şuşada Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar atəşfəşanlıq təşkil edildi.

Festivalın sonuncu günündə də bir-birindən maraqlı proqramlar təqdim olundu. Bunlardan biri Xurşidbanu Natəvanın evinin qarşısında keçirilən "Molla Nəsrəddin" tamaşasının təqdimatı oldu.

Mayın 11-də Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram hesabında "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından görüntülər paylaşaraq bir daha bu festivalın təntənəsini dünyaya nümayiş etdirdi.

## Zəfər, sülh, mədəniyyət ünvanı

Göründüyü kimi, Vətən müharibəsindəki parlaq zəfər sayəsində Qarabağımızın mirvarisi "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının timsalında tarixi şan-şöhrətini, mədəni ənənələrini, bir sözlə, mənəvi ruhunu bərpa edib.

Təsadüfi deyil ki, bu gün Şuşa beynəlxalq aləm tərəfindən musiqi festivallarının, şeir bayramlarının keçirildiyi, əlamətdar beynəlxalq tədbirlərin baş tutduğu, tarixi bəyannamələrin imzalandığı mühüm məkan kimi tanınır, artıq bütün dünya Şuşanı Azərbaycanın zəfər, sülh, tərəqqi və mədəniyyət rəmzi sayır.

Və o da təsadüfi olmadı ki, Prezident İlham Əliyev müasir Azərbaycanın yaradıcısı Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə müraciətini də Zəfər qalamız Şuşa şəhərindən etdi.

Qalib lider İlham Əliyev söylədi ki, mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim: "Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa zəfərimizin rəmzidir, Şuşa zəfərimizin tacıdır".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Bağışlamaq qəlbin böyüklüyüdür

# 801 ailəyə mərhəmət töhfəsi

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyev tərəfindən mayın 8-də müstəqillik tariximizin ən böyük əfv sərəncamı imzalandı. 801 nəfər məhkuma şamil olunan əfv sərəncamı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu bağışlama və əfvetmə təşəbbüslərinin dövlət başçısı tərəfindən layiqincə davam etdirildiyini sübut edir. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.





## Ulu Öndərin xatirəsinə ehtiram nümunəsi

Milli Məclisin deputatı Kamilə Əliyeva deyib ki, İlham Əliyev prezident seçildikdən sonra milli bayramlarda, ən əlamətdar günlərdə məhkumların azadlığa qovuşması ilə bağlı davamlı olaraq əfv sərəncamları və amnistiya aktları imzalayır: "Ümummilli Lider tərəfindən əsası qoyulmuş bu ənənənin layiqli davamçısı kimi, dövlət başçısının həyata keçirdiyi humanist tədbirlər nəticəsində minlərlə məhbusa, onların ailə üzvlərinə sevinc bəxş edilir. Mayın 8-də də Prezident İlham Əliyev ənənəsinə sadiqliyini bir daha nümayiş etdirdi və müstəqil Azərbaycan dövlətinin qurucusu və xilaskarı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə 801 məhbusun əfv olunması barədə sərəncam imzaladı. 10 may tarixi, xüsusilə də 100 illik yubiley ölkəmizin həyatında çox əlamətdar hadisədir. Bu baxımdan budəfəki əfv sərəncamı Ulu Öndərin xatirəsinə böyük ehtiram nümunəsidir. Nəzərə almaq lazımdır ki, Heydər Əliyev hər zaman Azərbaycan vətəndaşlarının firavan və xoşbəxt yaşamalarını arzu edib".






Deputat bildirib ki, həmin məhkumların 14-ü əcnəbidir, 10-u isə hüquq müdafiə təşkilatlarının müraciəti əsasında əfv olunub: "Bu da ölkəmizdə humanizm prinsipləri ilə yanaşı, demokratik dəyərlərə üstünlük verildiyini də göstərir. Həmçinin xüsusi qeyd etmək lazımdır ki, sərəncam əhatə dairəsinə görə müstəqillik tariximizin ən böyük əfv aktıdır. Yeni əfv sərəncamı sübut edir ki, Prezident İlham Əliyev humanizm və mərhəmət prinsiplərini hər zaman üstün tutur, hər bir Azərbaycan vətəndaşına qayğı ilə yanaşır. Ümid edirik əfv olunmuş şəxslər də ölkəmizə layiqli vətəndaş olacaq və dövlətimizin rifahı və inkişafı üçün çalışacaqlar".

K.Əliyeva vurğulayıb ki, humanizm dəyərlərinin daha da inkişaf etdirilməsinə xidmət göstərən əfv sərəncamları cəmiyyətimizdə yüksək qiymətləndirilir.

## Müstəqilliyimizin ən böyük əfvi

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, növbəti əfv sərəncamının xüsusilə əlamətdar hadisə ərəfəsində imzalanması çox önəmlidir: "Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ənənələrini davam etdirir, ata vəsiyyətini yerinə yetirir. Unutmaq olmaz ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə dəfələrlə belə sərəncam və amnistiya aktları imzalanıb. Dövlət başçısı bu siyasətə sadiq qalmaqla böyük humanistlik nümayiş etdirir. Bu, ümumilikdə Azərbaycan xalqının və dövlətinin milli-mənəvi dəyərlər sisteminə bağlılığını göstərir".

Deputat vurğulayıb ki, əfv etmək kimi müstəsna hüquq məhz dövlət başçısına məxsusdur. Prezident də bu hüququndan istifadə edərək hər il bayramlarda və ya tarixi günlərdə yüzlərlə ailəyə sevinc bəxş edir. Bu baxımdan müstəqilliyimizin ən böyük əfvi alqışlanmalıdır.

## Vətəndaşlarımızın mənəvi sağlamlığı hər zaman diqqət mərkəzindədir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib ki, Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan əfvetmə və amnistiya institutu artıq tam formalaşıb: "Ulu Öndərin əsasını qoyduğu əfvetmə ənənəsi Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Xüsusilə bayramlarda və əlamətdar hadisələr ərəfəsində yüzlərlə ailəyə sevinc bəxş edilir. Mayın 8-də imzalanmış, müstəqillik tariximizdə ən geniş siyahıya malik olan növbəti əfv aktı da dövlətimizin humanizm prinsiplərinə sadiqliyini sübut edir. Bu, hər şeydən əvvəl həm də ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasının, vətəndaşlara hörmət və ehtiramın daim diqqət mərkəzində olmasının göstəricisidir".

Deputat qeyd edib ki, insanların mənəvi cəhətdən sağlamlaşdırılması, onların cəmiyyətə sağlam qaytarılması məsələsi Ulu Öndərin, Prezident İlham Əliyevin daim böyük həssaslıqla yanaşdığı məsələ olub: "Yəni cəza vermək dövlət üçün prioritet deyil, əsas olan vətəndaşların mənəvi sağlamlığına qovuşmalarıdır. Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində ölkə prezidentinin əfv sərəncamı imzalayaraq yüzlərlə ailəyə sevinc bəxş etməsi təqdirəlayiqdir. Azərbaycan Prezidenti vətəndaşının rifahına, onun mənəvi sağlamlığına hər zaman diqqət yetirir. Bu, onu nümayiş etdirir ki, dövlət idarəçiliyimiz humanizm prinsiplərinə söykənir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# TƏBİB-in tabeliyindəki bir sıra tibb müəssisələrinin adları dəyişdirilib

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil olan bir sıra tibb müəssisələrinin adları dəyişdirilib.**

TƏBİB-dən AZƏRTAC-a verilən məlumata görə, Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil edilən bir sıra tibb müəssisələrində ilkin səhiyyə xidmətinin optimallaşdırılması və təkmilləşdirilməsi məqsədilə tədbirlər davam etdirilir. Həyata keçirilən yeniliklərə uyğun olaraq, 10-dan çox tibb müəssisəsinin adı bundan sonrakı fəaliyyət istiqamətinə əsasən yenidən formalaşdırılıb.

Belə ki, mərkəzin strukturuna daxil olan 8 nömrəli Şəhər Xəstəxanasının, 9, 12, 13, 15, 18, 22, 28, 31 və 32 nömrəli birləşmiş şəhər xəstəxanalarının (BŞX), Zabrat və Zirə müalicə diaqnostika mərkəzlərinin (MDM) adları aşağıdakı şəkildə dəyişdirilib:

- 8 nömrəli Şəhər Xəstəxanası / Nardaran Sağlamlıq Mərkəzi,
- 12 nömrəli BŞX / Suraxanı Sağlamlıq Mərkəzi,
- 28 nömrəli BŞX / Bilgəh Sağlamlıq Mərkəzi,
- Zabrat MDM / Zabrat Sağlamlıq Mərkəzi,
- Zirə MDM / Zirə Sağlamlıq Mərkəzi,
- 9 nömrəli BŞX / 41 nömrəli Şəhər Poliklinikası,
- 13 nömrəli BŞX / 42 nömrəli Şəhər Poliklinikası,
- 15 nömrəli BŞX / 43 nömrəli Şəhər Poliklinikası,
- 18 nömrəli BŞX / 44 nömrəli Şəhər Poliklinikası,
- 22 nömrəli BŞX / 14 nömrəli Şəhər Poliklinikası,
- 31 nömrəli BŞX / 45 nömrəli Şəhər Poliklinikası,
- 32 nömrəli BŞX / 46 nömrəli Şəhər Poliklinikası.

Xatırladaq ki, TƏBİB rəhbərliyinin qərarına əsasən, mərkəzin tabeliyində olan bir sıra müəssisələrdə stasionar fəaliyyət dayandırılmaqla çarpayı fondu optimallaşdırılıb və həmin müəssisələrdə ambulator - poliklinik xidmət gücləndirilib. Qeyd olunan tibb müəssisələrinin adlarındakı bu dəyişiklik məhz həmin qərara uyğunlaşdırılıb və yeni istiqamət müəyyənləşdirilib.

Həyata keçirilən həmin tədbirlər tibbi kadrlardan səmərəli istifadə, ilkin səhiyyə xidməti müəssisələrinin ambulator xidmət çeşidinin və keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyır.

# Atəşkəslə bünövrəsi qoyulan zəfər

## Azərbaycan artıq öz milli haqqını qətiyyətlə təmin edən dövlətdir



**Savaş yolu ilə torpaqlarını azad edən Azərbaycan indi onlara yeni həyat verir. 30 ilə yaxın işğal altında qalan, erməni vandalizminin qurbanı olan Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur, keçmiş məcburi köçkünlər tədricən öz evlərinə qayıdırlar. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mayın birinci ongünlüyündə işğaldan azad olunmuş ərazilərə səfərləri dövlətimizin Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq əzmini bir daha dünyaya nümayiş etdirdi.**

### Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir

Ağdam, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarını, Hadrut qəsəbəsini, Şuşa şəhərini əhatə edən bu səfərlərin diqqətçəkən əsas məqamlarından biri ondan ibarət oldu ki, bərpa və quruculuq işləri getdikcə sürətlənir və daha geniş miqyas alır. Prioritet istiqamət olan infrastrukturun yaradılması ilə yanaşı, kəndlərin təməlləri qoyulur, rayon mərkəzlərində yeni yaşayış məhəllələri, inzibati binalar inşa edilir. Bütün bunların hər biri doğma yurdlarına dönəcək vətəndaşlarımızın layiqli yaşayışının təmin edilməsi üçündür. Prezident İlham Əliyevin mayın 10-da Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Şuşadan etdiyi müraciətində dediyi kimi, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır".

Azad edilmiş bütün torpaqlarımız yenidən qurulacaq və evlərinə geri dönən keçmiş məcburi köçkünlər Qarabağda, Şərqi Zəngəzurda əbədi yaşayacaqlar. Çünki buralar bizim ata-baba torpaqlarımızdır, tarixi Azərbaycan əraziləridir. Birinci Qarabağ müharibəsində atəşkəsin elan olunmasının 29-cu ildönümündə biz bunu daha qürurla, daha fəxarətlə dünyaya bəyan edirik. 29 il əvvəl, 1994-cü il may ayının 12-də atəşkəs torpaqlarımızın işğal altında olduğu bir şəraitdə elan olunmuşdu. Bu gün isə Azərbaycan qalibdir, 44 günlük İkinci Qarabağ savaşından sonra şərtləri diktə edən tərəfdir.

### Ərazi bütövlüyümüz tam bərpa olunub

Xatırladaq ki, atəşkəsin əldə edilməsi barədə imzalanmış "Bişkek protokolu" 1994-cü il mayın 12-dən qüvvəyə minmiş və həmin gündən hərbi əməliyyatlar dayandırılmışdı. Sənədə əsasən, tərəflər tezliklə beynəlxalq vasitəçilik sayəsində "sülh sazişi" imzalamalı idilər. Lakin sonrakı dövrdə Ermənistanın ənənəvi qeyri-konstruktiv mövqeyi buna imkan vermədi.

Baş verənlər göstərdi ki, artıq Azərbaycana güclü və qətiyyətli lider rəhbərlik edir. Məhz Heydər Əliyev ən ağır şəraitdə belə Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qoruyub saxlamış, həmçinin Ermənistanın işğal planları gücləndiyi bir vaxtda yeni və nizami ordu yaratmışdı. Ulu Öndərin qurduğu Silahlı Qüvvələr 1994-cü ildə Füzuli rayonu və Murov dağı istiqamətlərində təcavüzkar Ermənistan ordusunu məğlubiyyətə uğratmış, ərazilərimizin bir qismini işğaldan azad etmişdi. Xüsusən Horadiz əməliyyatı Ermənistanda ciddi təşviş doğurmuşdu. Böyük sərkərdə Heydər Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycanda həyata keçirilən mükəmməl hərbi quruculuq Ermənistanı və onun havadarlarını işğalçılıq planlarını davam etdirməkdən çəkindirmişdi.

Ordu quruculuğu, ümumilikdə isə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra respublikamızda başlanan proseslər göstərirdi ki, Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etməyə qadirdir. O cümlədən Ermənistana və onun havadarlarına aydın olmuşdu ki, xalqımız torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacaq.

"Bişkek protokolu"na əsasən, atəşkəs rejimi real sülh addımları ilə müşayiət olunmalı, yaxın müddət ərzində işğal olunmuş ərazilər boşaldılmalı, köçkünlərin geri qaytarılmasını nəzərdə tutan sülh sazişi imzalanmalı idi. Lakin danışıqlar prosesi məhz Ermənistanın işğalçı xisləti səbəbindən uzandı. Ən təəssüflüsü də odur ki, bütün bunlar dünyanın gözü qarşısında baş verirdi. Azərbaycanın beynəlxalq hüquqla tanınmış torpaqları işğal olunmuş, yüz minlərlə azərbaycanlı öz evindən köçkün düşmüşdü. Beynəlxalq təşkilatların, vasitəçilərin Azərbaycanın ərazi bütövlüyünün pozulmasına olan etinasız münasibətləri, məsələyə yanaşmada ikili standartlardan çıxış etmələri, işğalçını öz adı ilə çağırmamaları atəşkəsdən sonrakı dövrün reallıqları idi.

Bütün bunlara rəğmən Azərbaycan dövləti atəşkəsdən düzgün yararlandı. Ulu Öndər atəşkəs dövründə Azərbaycanı inkişaf yoluna çıxardı, beynəlxalq birlikdəki mövqelərini gücləndirdi, danışıqlar prosesində respublikamızın haqlı mövqeyini qətiyyətlə qorudu. Bu siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirdi. Ermənistanın "Ohanyan səddi" ilə öyündüyü, öz ordusu ərafında mif yaratdığı dövrdə Prezident İlham Əliyev yeni çağırışlar əsasında ordu quruculuğu həyata keçirdi, qoşunlarımızın döyüş qabiliyyətini ən müasir tələblər səviyyəsinə yüksəltdi. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmasına heç vaxt imkan verilməyəcəyini bildirən Prezident İlham Əliyev onu da bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan güc yolu ilə torpaqlarını işğaldan azad edəcək.

2020-ci il sentyabrın 27-də Ermənistanın başlatdığı hərbi təxribatlardan sonra Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu öz missiyasını şərəflə yerinə yetirdi. Sülh danışıqlarını imitasiya edən, sözlə başa düşməyən Ermənistanı Azərbaycan döyüş meydanında darmadağın edərək problemin ədalətli həllini təmin etdi.

Artıq "Bişkek protokolu" da keçmişdə qalıb. Azərbaycan 44 günlük müharibədəki zəfəri ilə regionda yeni reallıqlar yaradıb, ərazi bütövlüyünü tam bərpa edib. Məğlub Ermənistanın isə bu reallıqlara uyğunlaşmaqdan başqa yolu yoxdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MN: "Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub"



Ermənistan silahlı qüvvələri bölmələrinin qəsdən törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən qəti cavab tədbirləri görülür. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçumuzun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# *XİN:* "Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"

**Ermənistan Respublikası sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatlarını artırır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistan tərəfindən növbəti hərbi təxribatlar barədə mətbuat məlumatında bildirilib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb.

Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyəti gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribatlar nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

Ermənistanın təxribatlarının hər zaman olduğu kimi, sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür.

Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Ermənistan tərəfi növbəti təxribata zəmin yaradır

**Basarkeçər rayonunun Zod istiqamətində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirən Ermənistan silahlı qüvvələri bölmələrinin aktivliyi tərəfimizdən müşahidə edilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bununla qarşı tərəf növbəti təxribata zəmin yaratmağa cəhd göstərir.

"Bölgədə yaranmış gərginliyə görə bütün məsuliyyət məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - deyə məlumatda qeyd edilib.

# XİN: "Azərbaycan Brüssel formatını əvəz etməmək şərtilə Kişineuda qeyri-formal görüşdə iştirakının mümkün olduğunu bildirib"

**Ötən il Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında bir neçə görüş keçirilib. Dekabrda məhz Ermənistan tərəfi Brüsseldə eyni formatlı görüşdə iştirakdan imtina edib, bununla da prosesə maneçilik törədilib.**



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin mayın 14-də Brüsseldə, iyunun 1-də isə Avropa Siyasi İcmasının Kişineuda keçiriləcək növbəti görüşündə Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə görüşlərinin planlaşdırılması barədə Avropa İttifaqının məlumatına dair yerli medianın sorğusunu cavablandırarkən bildirib.

Xarici İşlər Nazirliyinin nümayəndəsi vurğulayıb ki, Azərbaycan tərəfi ötən il baş tutmamış və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə may ayında yenidən bərpa olunması planlaşdırılan Brüssel görüşünə razılıq verib.

Eyni zamanda Kişineuda Avropa Siyasi İcmasının növbəti iclası çərçivəsində Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilməsi təklif olunub. Azərbaycan tərəfi öz növbəsində Brüssel formatını əvəz etməmək və bu formatı dəyişdirməmək şərtilə Kişineuda qeyri-formal görüşdə Azərbaycan tərəfinin iştirakının mümkün olduğunu bildirib. Bununla yanaşı, sözügedən görüşün təfərrüatları barədə müfəssəl məlumat verilmədiyi nəzərə alınaraq, Kişineu görüşündə iştiraka dair yekun razılıq hələlik mövcud deyil.

# Ombudsman Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə bağlı müraciət yayıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə bağlı müraciət yayıb.**

AZƏRTAC müraciəti təqdim edir.

Təəssüf hissi ilə qeyd edirik ki, Azərbaycanın sülh çağırışlarına məhəl qoymayan Ermənistan insan hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş hərbi təxribatlara hələ də davam etməkdədir.

Mayın 10-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətindəki mövqelərindən ordumuzun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla növbəti dəfə təxribat törətmişdir. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçuları - Novruzəlizadə Orxan Elxan oğlu həlak olmuş, Mahmudlu Müslüm Vidadi oğlu ağır yaralanmışdır.

Ermənistanın növbəti hərbi təxribatı nəticəsində həlak olmuş hərbçimizə Allahdan rəhmət diləyir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, regionda sülh quruculuğu prosesində maraqlı olmayan, öz işğalçı siyasətini davam etdirən, insan hüquqlarını kobud şəkildə pozan Ermənistanın hal-hazırda da davam edən hərbi təxribatını kəskin şəkildə pisləyirik.

Azərbaycanın davamlı olaraq təklif etdiyi sülh çağırışlarının əksinə olaraq Ermənistan məqsədli şəkildə regionda vəziyyəti gərginləşdirir, beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla yeni münaqişə ocaqlarının yaranması üçün təxribatlar törədir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili olaraq bir daha beynəlxalq təşkilatlara müraciət edərək, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarına dərhal son qoyulması, regionda sülhün bərpası üçün qəti tədbirlərin görülməsini tələb edirik.

# Los-Ancelesdə dinc azərbaycanlılara hücumla bağlı saxlanılan ermənilərin cəzalarının təfərrüatları açıqlanıb

**Məlum olduğu kimi, 2020-ci il iyulun 21-də Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun binası yanında Azərbaycan əleyhinə təxribat aksiyası keçirən və soydaşlarımıza qarşı zorakılıq və təcavüz edənlər ABŞ Məhkəməsinin qərarı ilə məsuliyyətə cəlb edilib. Beləliklə, Los-Ancelesin yerli erməni icmasının məsələni "ört-basdır etmək" üçün çoxsaylı cəhdlərinə baxmayaraq, Azərbaycan tərəfinin ardıcıl və prinsipial mövqeyi özünü göstərib. Aksiya iştirakçısı olan Erik Hakobyan və Hovanes Sukasyan ABŞ qanunları ilə cəzalandırılıb.**

AZƏRTAC xəbər verir ki, 2020-ci ilin yayında baş verən məlum insidentdən dərhal sonra Azərbaycanın Xarici İşlər Nazirliyi zorakılıq törətmiş yerli ermənilərin məsuliyyətə cəlb olunması üçün rəsmi prosesə başlamaq məqsədilə azərbaycanlılarla əlaqə saxlayıb.

İlk günlərdən məlum olub ki, yerli idarəçilik orqanları siyasi səbəblərdən yerli erməni diasporunun üzvlərinə qarşı cinayət işinin başlanmasında maraqlı olmayıb. Bu prosesdə yerli siyasi dairələr vasitəsilə istintaq orqanlarına təzyiq göstərən erməni icmasının nümayəndələri də mühüm rol oynayıblar.

Buna baxmayaraq, Azərbaycan XİN-in səyləri nəticəsində, nəhayət, məhkəmənin yekun qərarları ilə iki etnik erməniyə qarşı cinayət işi başlandı və onlara qarşı qərar çıxarıldı.

**Erik Hakobyan (mitinq zamanı hökumət rəsmisinə hücum etdiyinə görə; Los-Anceles, Kaliforniya yerli məhkəməsinin qərarı, 15 iyun 2021-ci il)**

- Ştat Cinayət Məcəlləsinin 242-ci maddəsinə əsasən 12 ay müddətinə azadlıqdan məhrumetmə növündə cinayət məsuliyyəti - Əgər bu müddət ərzində məhkum hər hansı, hətta azyaşlı cinayət törətdikdə, məhkəmənin hökmü ilə yerdə qalan müddəti cəzaçəkmə müəssisəsində çəkməyə məcbur edilir;
- Silahların əldə edilməsi, saxlanması və/və ya gəzdirilməsinin qadağan edilməsi;
- Hücumun qurbanına bütün xərclərin ödənilməsi.

- **Hovanes Sukasyan (etirazçıya hücum etdiyinə görə; Los-Anceles, Kaliforniya yerli məhkəməsinin 29 mart 2023-cü il tarixli qərarı)**
- Ştat Cinayət Məcəlləsinin 422.6-cı maddəsinin "a" bəndinə əsasən azərbaycanlıya qarşı nifrət cinayəti törətməkdə ittiham olunub;
- 12 ay şərti azadlıqdan məhrumetmə növündə cinayət məsuliyyəti - bu müddət ərzində məhkum hər hansı, hətta kiçik cinayət törətsə, məhkəmənin hökmü ilə qalan müddəti həbs yerlərində çəkməyə məcbur ediləcək;
- 90 saat ictimai iş;
- 20 saatlıq qəzəbi idarəetmə təlimi;
- Hücumun qurbanına bütün tibbi və digər xərclərin ödənilməsi;
- Əlavə olaraq, 1000 ABŞ dolları məbləğində cərimə ödənilməsi;
- Bir qayda olaraq, məhkumun qərarın qüvvədə olduğu müddətdə ştatın ərazisini tərk etməsi qadağandır.

Göründüyü kimi, Los-Ancelesin yerli erməni icmasının məsələni "ört-basdır etmək" üçün çoxsaylı cəhdlərinə baxmayaraq (siyasi, qanunvericilik və məhkəmə hakimiyyətinə böyük təsir göstərdiyinə görə), Azərbaycan tərəfinin ardıcıl və prinsipial mövqeyi ABŞ qanunları əsasında hücumun iki əsas iştirakçısının cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnib.

# *Hərbi Prokurorluq:* "Əsgərimizin düşmən atəşi nəticəsində yaralanması ilə bağlı cinayət işi açılıb"

**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Mahmudlu Müslüm Vidadi oğlunun düşmən tərəfdən odlu silahdan açılmış atəş nəticəsində yaralanması barədə Kəlbəcər Hərbi Prokurorluğuna məlumat daxil olub.**

Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş məlumat əsasında Kəlbəcər Hərbi Prokurorluğunun işçiləri tərəfindən izahatlar alınıb, Hərbi Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin əməkdaşları ilə birlikdə müvafiq işlər görülüb və digər hərəkətlər icra edilib.

Fakt üzrə Kəlbəcər Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilərək təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ermənilərin viran qoyduğu ərazilərdə biz təməl qoyuruq

### Qarabağ və Şərqi Zəngəzurun sürətli dirçəlişi dünyaya bir daha kimin kim olduğunu göstərir



**44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə başlandı. Azad olunmuş yaşayış məntəqələrinin bərpası və yenidən qurulması dövlətin əsas vəzifəsinə çevrildi. Yerlə bir edilmiş şəhər və kəndlərdə yol, elektrik enerjisi, su, rabitə, təhsil, səhiyyə, mədəniyyət və digər zəruri infrastrukturların yaradılması üçün görülən işlər gündən-günə sürətləndi.**

Azad olunmuş rayonlarda mövcud reallıqlar bu ərazilərin inkişafına imkan verir. Üstəlik, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın bugünkü sürətli inkişafı şərait yaradır ki, Qarabağ və Şərqi Zəngəzurda iqtisadi resurslardan geniş istifadə olunsun. Təbii ehtiyatlar, enerji mənbələri, yeraltı faydalı qazıntılar, tikinti materialları üçün xammal, termal sular, turizm imkanları bu regiona investorların da marağını artırır. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfər edərkən sahibkarlara bərpa-quruculuq işlərinə sərmayə yönəltmələri üçün çağırış etməsi də bununla bağlıdır. Öz növbəsində iş adamları da Prezidentin çağırışına canbaşla qoşulurlar. Çünki bu işdə dövlətin onların arxasında olduğuna əmindirlər. Bu qarşılıqlı inam və etibar nəticəsiz qalmır, erməni vandallarının viran qoyduğu, xarabaya çevirdiyi regionun siması sürətlə dəyişir.

Prezidentin ötən il təməlini qoyduğu Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında qida və xidmət sənayesi, kiçik və iri sənaye müəssisələri, TIR parkı, tikinti materiallarının satışı bazası, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, ət və süd məhsullarının, yem, gübrə, şərab istehsalı və emalı, eyni zamanda xidmət sahələri və soyuducu kameraların yaradılması davam edir. Onu da qeyd edək ki, Ağdamın strateji coğrafi mövqeyi və insan resurslarının potensialı gələcəkdə bütöv Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarına təkan verən amildir.

Məlumdur ki, iqtisadiyyat da, siyasət də insan üçündür. İnsanın rifahı, firavan yaşaması onun güclü dövlətin vətəndaşı olmasına dəlalət edir. Amma vətəndaş da ölkəsinin inkişafında yaxından iştirak etməli, "ver yeyim, ört yatım" psixologiyasından uzaq olmalıdır. Bu gün sənaye müəssisələrinin və kənd təsərrüfatının paralel dirçəlişi gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayacaq əhalinin məşğulluğu, yəni rifahı üçündür. Bu isə çox da uzaqda deyil. İlk addım "ağıllı kənd" olaraq Ağalıda atılıb. İkinci "ağıllı kənd"in təməli isə Füzuli rayonunun Dövlətyarlı kəndində qoyulub.

Dövlət başçısının və Birinci vitse-prezidentin Qarabağa və Şərqi Zəngəzura səfərləri çox böyük əhəmiyyət kəsb edir. Belə səfərlərdə neçə-neçə sənaye və aqrar müəssisənin, yaşayış məntəqələrinin təməli qoyulur və ya açılışı olur. Bu günlər də Prezident Xocavənddə Tuğ, Füzulidə Dədəli və Pirəhmədli, Zəngilanda Cahangirbəyli, Cəbrayılda Şükürbəyli və Horovlu, Qubadlıda Mahruzlu və Xanlıq, Laçında Güləbird kəndlərinin, eləcə də Ağdam şəhərində ikinci yaşayış məhəlləsinin təməlini qoydu. Təməli qoyulan bu məhəllələrdəki binaların inşasında modern memarlıqdan və milli ornamentlərdən istifadə olunacaq. Binaların inşasında istilik tutumlu təbii inşaat materialları işlədiləcək. Ərazidə inzibati binaların, klub və icma mərkəzlərinin, məktəblərin, bağçaların, idman meydançalarının, istirahət guşələrinin və digər zəruri infrastruktur obyektlərinin inşası, geniş yaşıllıq zolaqlarının salınması, mərkəzi istilik və su təchizatı sisteminin yaradılması nəzərdə tutulub. Bütün binalar yüksəksürətli internetlə də təmin ediləcək.

Həmin günlər Prezidentin iştirakı ilə təkcə yaşayış məhəllələrinin deyil, həm də sənaye müəssisələrinin - "Holçim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin təməli qoyuldu. Füzuli şəhərində təməli qoyulan içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksi də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı üçün zəruri olan obyektlərdəndir.

Dövlət başçısının işğaldan azad olunmuş rayonlara səfərləri zamanı həmin ərazilərdə təməllərini qoyduğu strateji obyekt və sənaye müəssisələri, eləcə də yaşayış məhəllələri həm iqtisadi, həm də dünyaya bir mesaj olaraq siyasi cəhətdən çox böyük əhəmiyyət kəsb edir. Bununla bütün dünya bir daha kimin kim olduğunu, Qarabağ və Şərqi Zəngəzurun əsl sahibinin qayıtdığını görür.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 58,8 min pensiya, müavinət, təqaüd proaktiv qaydada təyin olunub

**Cari ilin yanvar-aprel ayları ərzində 58,8 min pensiya, müavinət, təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada aparılıb. Onlardan 12,8 mini pensiya, 46 mini müavinət və təqaüd təyinatı olub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektronlaşdırılıb.

Həmin e-təyinat sistemləri vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq təyinatların e-sistem üzərindən avtomatik aparılmasına imkan verir.

## Daha 1591 nəfər

### Bununla "Məşğulluğa Dəstək Layihəsi"nə cəlb olunanların sayı 8114-ə çatıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nə bu il daha 1591 işsiz şəxs cəlb edilib. Beləliklə, layihəyə cəlb olunanların sayı 8114-ə çatıb.**



Ümumilikdə 22 min şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi məqsədi daşıyan layihənin iştirakçıları üçün əvvəlcə təlimlər təşkil olunur. Təlimlərin sonunda keçirilən qiymətləndirmədə biznes-planlarını müdafiə edən şəxslər istehsal və xidmət sahələri üzrə təsərrüfatlarını yaratmaları üçün avadanlıqlarla təmin olunurlar.

Layihənin məqsədi işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və b.) özünüməşğulluq üzrə kiçik bizneslərinin yaradılmasıdır.

## Macarıstanda Azərbaycanın aqrar sahədəki dövlət dəstək mexanizmləri barədə təqdimat keçirilib

**Macarıstanın paytaxtı Budapeşt şəhərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə regional ofisi tərəfindən Avropa və Mərkəzi Asiya üçün qeyri-rəsmi məsləhətləşmələr mövzusunda konfrans təşkil olunub.**

Tədbir FAO-nun Avropa və Regional konfranslarının iki ildən bir keçirilən sessiyaları arasındakı dövrdə regional ofisin üzv ölkələrlə təmasları və fikir mübadilələrini təmin etmək məqsədini daşıyır.

Konfransda 2022-2025-ci illər üçün ortamüddətli planın yenilənməsi və 2024-2025-ci illər üçün fəaliyyət və büdcə proqramı, eləcə də FAO-nun Avropa və Mərkəzi Asiya regionu üçün prioritetləri müəyyənləşdirilib. Eyni zamanda konfransda gender əsaslı aqrar məsləhət xidmətləri, aqrar sahədə innovasiyalar, rəqəmsallaşma, Avropa və Mərkəzi Asiya regionunda dayanıqlı qida sistemləri üçün bioiqtisadiyyat, ərzaq təhlükəsizliyi və kənd təsərrüfatına təsir edən amillər, ailə-kəndli təsərrüfatları, kənd icmaları üçün kənd yerlərinin inkişafı üzrə məsələlər barədə müzakirələr aparılıb.

Konfransda Azərbaycanın aqrar sahədəki dövlət dəstək mexanizmləri, son illərdə aqrar sahədə dövlətin həyata keçirdiyi islahatlar, benefisiar ölkə kimi FAO ilə Texniki Əməkdaşlıq Proqramı (TCP) çərçivəsində həyata keçirilən layihələr və regional əməkdaşlıq barədə geniş təqdimatlar olub.

## Qeyri-neft-qaz sektorunda məhsul istehsalı 6,1 faiz artıb

**Cari ilin yanvar-aprel aylarında ölkə üzrə 24,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 3,3 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,1 faiz artmışdır.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye məhsullarının 71,1 faizi mədənçıxarma sektorunda, 23,6 faizi emal sektorunda, 4,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 8,0 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 1,9 faiz artmışdır.

## Əsas kapitala 4,5 milyard manatdan çox vəsait yönəldilmişdir

**İlin əvvəlindən ötən 4 ay ərzində əsas kapitala 4 milyard 580 milyon manat, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 21,1 faiz çox vəsait yönəldilmişdir.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 25,8, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 18,5 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 2 milyard 620,2 milyon manatı və ya 57,2 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 702,5 milyon manatı (37,2 faizi) xidmət sahələrinə, 257,3 milyon manatı (5,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3 milyard 344,0 milyon manatını və ya 73 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3 milyard 252 milyon manatı və ya 71 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 47,1 faiz, büdcə vəsaitləri 36,7 faiz, əhalinin şəxsi vəsaitləri 6,8 faiz, bank kreditləri 3,7 faiz, sair vəsaitlər isə 5,7 faiz təşkil etmişdir.

## Orta dəhlizin iki önəmli ölkəsi - Çin və Azərbaycan

### Qarşılıqlı əməkdaşlıq yükdaşımaların həcmini daha da artıracaq

**Xəbər verildiyi kimi, bu il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edən tanınmış siyasət bilicilərinin dünya və Azərbaycanla bağlı müxtəlif suallarını cavablandırıb, bir sıra məsələlər ətrafında ölkəmizin mövqeyini açıqlayıb.**

Sual verənlər sırasında Orta dəhlizlə maraqlananlar daha çox olub ki, bu da Şərqlə Qərbi birləşdirən Orta dəhlizin dünyanın diqqət mərkəzində olduğundan xəbər verir. Prezident İlham Əliyev Albaniya Beynəlxalq Araşdırmalar İnstitutunun İdarə Heyətinin üzvü Arian Starovanın "Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün gələcəyi barədə nə düşünürsünüz" sualına cavab verərkən demişdir: "Bir kəmər, bir yol" təşəbbüsü həmişə Azərbaycan tərəfindən dəstəklənib. Azərbaycan beynəlxalq konfransa dəvət almış və orada yüksək səviyyədə iştirak etmiş məhdud sayda ölkələrdən biri idi. "Bir kəmər, bir yol" təşəbbüsünə həsr olunmuş bu konfrans Çində 2019-cu ilin yazında keçirildi. Azərbaycan xüsusilə indi bu layihənin mühüm hissəsi hesab olunur. Biz çox nikbin fikirdəyik. Nikbinliyi artıran ilk növbədə odur ki, biz öz üzərimizə düşən işi çox yaxşı yerinə yetirmişik. Artıq qeyd etdiyim kimi, nəqliyyat infrastrukturunu müasirləşdirmək və daha çox imkanlar yaratmaq üçün onu tamamilə müasirləşdirmişik və hələ də son tamamlama işlərini görürük".

Dövlət başçısı həmçinin bildirmişdir ki, ötən ilin sonunda Çin, Qırğızıstan, Özbəkistan və Xəzər dənizi arasında yeni dəmir yolu əlaqələrinin qurulmasına başlanılıb. Belə ki, Mərkəzi Asiyada genişşaxəli dəmir yol infrastrukturunun qurulması Orta dəhlizin səmərəli fəaliyyət göstərməsinə əlavə imkanlar yaradacaq. Mərkəzi Asiya ölkələri ilə nəqliyyatın təhlükəsizliyi, vahid tarifin müəyyən edilməsi və kommersiya baxımından əhəmiyyətli olması üçün danışıqlar aparılır. Eyni zamanda tərəfdaş ölkələrlə gömrük idarəçiliyinə dair razılığa gəlsələr, bürokratik əngəllər aradan qalxacaq ki, bu da yükgöndərən və yük qəbul edənlərin hamısına sərfəli olacaq.



Məlumdur ki, Orta dəhliz boyunca yerləşən ölkələrin hər birinin bu marşrutun sabit işləməsində özünəməxsus rolu var. Ancaq bu marşrut üzrə iki ən mühüm ölkə Çin və Azərbaycandır. Çin əsas yükgöndərən və yük qəbul edən ölkədir. Bu ölkənin təkcə Avropa ilə qarşılıqlı ticarətinin dəyəri 1,5 trilyon dollardır. Azərbaycan isə dəhliz üzrə qovşaq ölkədir. Belə ki, Şərqdən və ya Avropadan gələn yükləri Azərbaycan vasitəsilə Şimal-Cənub marşrutu ilə də göndərmək mümkündür. Bu isə tranzit imkanların çoxşaxəli olmasına şərait yaradır.

Çinlilər hesabı dəqiq aparan xalqdır. Onlar işə başlamazdan əvvəl nəyi necə etmək barədə hərtərəfli düşünürlər. Bu səbəbdən Çin özünün "Bir kəmər, bir yol" layihəsini icra etməzdən əvvəl hər bir nüansı nəzərə alıb. Onun nəticəsidir ki, 2019-cu ildə layihənin icrası üçün keçirilən konfransa məhdud sayda dəvət etdiyi ölkələrdən biri də Azərbaycan idi. Çinin dövlət başçısı Si Cinpinin Prezident İlham Əliyevi dostu adlandırmasının da səbəbi var. Əvvəla, belə münasibət dövlətimizin başçısına və ölkəmizə verilən dəyərin ifadəsidir. İkincisi də Çinin "Bir kəmər, bir yol" layihəsində ən çox əməkdaşlıq etdiyi ölkə Azərbaycandır.

Məlum olduğu kimi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) ilə Çinin ən böyük limanlarından biri olan Qinqdao limanı arasında anlaşma memorandumu imzalanıb. Memorandumun əsas məqsədi Azərbaycandan keçən Orta dəhliz vasitəsilə daha böyük həcmdə tranzit yük axınını cəlb etmək, adıçəkilən limanlar arasında qarşılıqlı faydalı əməkdaşlığı formalaşdırmaq və inkişaf etdirməkdir.

Qeyd edək ki, Çin Şandonq Port Qrupuna daxil Qinqdao limanında ilk tam avtomatlaşmış konteyner terminalını inşa edib. Burada bütün yükaşırma insan müdaxiləsi olmadan həyata keçirilir. Yükaşırmada tətbiq olunan süni intellekt və 5G texnologiyaları vasitəsilə liman keçən il 26 milyon TEU konteyner aşırıb. Yükaşırmasına görə Qinqdao limanı Çinin 3-cü ən böyük limanıdır. Qinqdao limanının daxil olduğu Şandonq Port Qrupu Çin daxilində və ondan kənarda ən sürətlə inkişaf edən beynəlxalq şirkətdir. Çinin Mərkəzi Asiya və Avropaya yük nəqlində əhəmiyyətli paya sahib olan bu limanlar qrupu 2022-ci ildə dünya üzrə rekorda həcmdə illik 1,6 milyard tondan çox yük aşırıb və bu göstərici hər il artır. Üstəlik, bu limanlar qrupu ötən il TEU ekvivalentində 37 milyondan çox konteyner aşıraraq dünya üzrə ən çox konteyner aşıran 3-cü liman olub.

Bakı limanı ilə Qinqdao limanı arasında imzalanan memorandumun şərtlərinə əsasən, tərəflər liman işinin təşkili və biznes tərəfdaşları ilə əlaqələr sahəsində müasir həllərdən istifadə edərək ən yaxşı təcrübə, rəqəmsal həllər, davamlılıq və texnologiyaların tətbiqi sahələrində əməkdaşlıq edəcəklər. Eyni zamanda limanlar arasında müasir bilik və bacarıqların öyrənilməsi məqsədilə qarşılıqlı səfərlər və təcrübə mübadilələrinin həyata keçirilməsi də nəzərdə tutulur. Qeyd edək ki, anlaşma memorandumuna görə həm də Qinqdao limanından Yaponiya və Cənubi Koreyadan gələn yüklərin Orta dəhliz vasitəsilə Azərbaycan üzərindən daşınması mümkün olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# İsveçli səyahətçilər Ağdamda erməni vandalizminin şahidi olublar

**İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura səfər edən İsveçin beynəlxalq səyahətçilər elitasının cəmləşdiyi "Club 100" təşkilatının 30 nəfərdən çox heyəti Füzuli və Xocavənd rayonlarından sonra Ağdama gəliblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, xarici səyahətçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.

İsveçli səyyahlar Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini və mədəni abidələrə baxış keçiriblər.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən onlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən biri olub. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Ağdam Çörək muzeyinin dağıntıları ilə də tanış olan səyyahlara məlumat verilib ki, şəhərdəki bütün tikililər kimi, bu bina da erməni barbarları tərəfindən dağıdılıb, eksponatları isə ya məhv edilib, ya da talan olunub. Dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Xarici səyyahlar sonra Ağdam şəhər Cümə məscidinə gəliblər.

Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları biləərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində malheyvan saxlayıblar. Ağdam şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən məscidin bərpasına başlanılıb.

Qonaqlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerləyeksan etdikləri binaların qalıqlarına da baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, teatr binasının qalıqları gələcəkdə açıq səma altında muzeydə saxlanılacaq.

İsveçli səyyahlar sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Səyyahlar həmçinin Ağdamda həyata keçirilən quruculuq işləri barədə də məlumatlandırılıblar. Bildirilib ki, Azərbaycan qısa müddətdə, özü də heç bir xarici maliyyə dəstəyi olmadan xarabalıqlardan cənnət yaradır.

Qeyd edək ki, qrupa "Club 100"un İdarə Heyətində təmsil olunan Bengt Hildebrand rəhbərlik edir. Bu nüfuzlu regional klub yalnız Skandinaviya əsilli beynəlxalq səyahətçiləri birləşdirməsi ilə tanınır. Heyətin 3 gün ərzində avtomobil yolu ilə Füzuli-Xocavənd-Ağdam-Tərtər-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl (Xudafərin) xətti üzrə hərəkət etməyi planlaşdırılır.

Bu səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması üçün müstəsna əhəmiyyət daşıyır. Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels" Klubunun geniş tərkibdə heyətlərinin ötən 2 ildə 6 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, biri isə 2023-cü ildə reallaşdırılıb. İsveçdən olan səfər bu qəbildən olan sayca 7-ci səfərdir.

Bu səfərlər çərçivəsində 200-dən çox dünyada tanınan səyyah Qarabağ və Şərqi Zəngəzurla yerində tanış olublar.

# İsveçdən olan dünya səyyahları Azıx mağarasında

**İsveçin beynəlxalq səyahətçilər elitasının cəmləşdiyi "Club 100" təşkilatının geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Füzuli rayonuna gələn isveçli səyyahlar burada Ermənistanın işğal dövründə törətdiyi dağıntılar və Füzuli rayonu azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən aparılan böyük quruculuq işləri ilə yerində tanış olublar. Xarici səyyahlar Füzulidən sonra Xocavənd rayonundakı Azıx mağarasına gəliblər.

Burada onlara məlumat verilib ki, Azıx mağarası Qarabağın qədim tarixə malik olmasını nümayiş etdirən nadir abidədir. Bu mağara Azərbaycan ərazisində daş dövründə ibtidai insan məskənlərinin olduğunu sübut edir.



Mədəniyyət Nazirliyinin əməkdaşı Pərviz Nəcəfov səyyahlara Azıx mağarasının tarixi, burada aparılmış arxeoloji tədqiqatlar barədə ətraflı məlumat verib.

Onlar işğal dövründə bu tarixi-mədəni abidənin də talan edilməsi, burada qanunsuz tədqiqat və qazıntı işlərinin aparılması barədə faktlarla yerində əyani şəkildə tanış olublar.

# İsveçli səyyahlar Füzuli rayonunda minatəmizləmə prosesini izləyiblər

**İsveçli səyahətçilər Füzuli rayonunun Horadiz kəndində minatəmizləmə prosesini, ərazidən tapılan minaların zərərsizləşdirilməsini izləyiblər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səyahətçilərə Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib. ANAMA nümayəndəsi Vüsal



Quliyev bildirib ki, 38 gün ərzində Horadiz kəndi ərazisində 4050 kvadratmetr ərazi əllə, 29 min kvadratmetr ərazi mexaniki yolla, 28 min 505 kvadratmetr ərazi isə minaaxtaran itlər vasitəsilə təmizlənib. Ərazidən piyada əleyhinə 55, tank əleyhinə 210 mina, 2 ədəd partlamamış hərbi sursat aşkarlanıb. Ermənistan tərəfindən qoyulmuş tələ minalara da rast gəlindiyi diqqətə çatdırılıb. Füzulinin Horadiz kəndində minatəmizləmə fəaliyyəti davam etdirilir.

## Elm xadimləri

# Zamanı dayandırmaq mümkün olsaydı

**Həmin günün həyəcanı ömrünün ən gözəl anı kimi xatirində həmişə təzə-tər qalıb. Ulu Öndər Heydər Əliyev Lenin adına (indiki Heydər Əliyev adına sarayda) keçmiş SSRİ-nin 50-dən artıq ali məktəbində təhsil alan gənclər qarşısında çıxış edirdi. Bütün əzəməti və möhtəşəmliyi ilə gənclərə tövsiyələrini çatdıran, onların gələcəyinə böyük ümid bəslədiyini bəyan edən Heydər Əliyev etimad göstərilən gənclərin sırasında onun da adını çəkdi. Bəlkə də həmin an zamanı dayandırmaq mümkün olsaydı, bu səsi, bu deyimi ömrünün sonuna kimi ürəyinə, yaddaşına yazıb həyatının çətin anında onu bir məlhəm kimi dinləyərdi.**



Hər an gözləri önünə Ulu Öndər Heydər Əliyevin 1978-ci ildə paytaxt Bakıda indiki Heydər Əliyev adına saraydakı nitqində onun adını çəkməsi canlanır və o gün yaddaşının ən əziz xatirəsinə çevrilir. Həmin vaxt K.D.Qlinka adına Voronej Kənd Təsərrüfatı İnstitutunun yerquruluşu fakültəsinin 3-cü kurs tələbəsi idi və əla qiymətlərlə oxuyurdu. Sözügedən institutdan Azərbaycan Respublikası Təhsil Nazirliyinə təşəkkür məktubu gəlir, tələbənin əla qiymətlərlə oxuması, davranışı, dərsə davamiyyəti, laboratoriya işləri barədə söz açılırdı. Bu səbəbdən də Ulu Öndər ənənəsinə sadiq olaraq yenə xarici ölkələrin ali məktəblərində qəbul olunan tələbələrlə görüşü zamanı onun adını çəkir və onlara bu ələçi tələbəni nümunə göstərir. Bu isə gənc tələbəni çox həyəcanlandırır. Dərslərə məsuliyyətini daha da artırır. İxtisasının sirlərini mükəmməl öyrənməyə çalışır. Axı, ölkənin birinci şəxsi onun haqqında yüksək fikir söyləyib, ona inamını ifadə edib.

Söhbət Ramiz Mirmahmud oğlu Quliyevdən gedir. 1958-ci il may ayının 12-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olan Ramiz Quliyev qəsəbə orta məktəbində təhsil alıb. Ulu Öndərin göndərişi ilə 1975-1980-ci illərdə K.D.Qlinka adına Voronej Kənd Təsərrüfatı İnstitutunda təhsil alaraq Yerquruluşu fakültəsində mühəndis-yerquruluşçusu ixtisasına yiyələnib.

1980-ci ildə institutu fərqlənmə diplomu ilə bitirib və keçmiş SSRİ Kənd Təsərrüfatı Nazirliyinin təyinatı ilə S.Ağamalıoğlu adına "Şərəf nişanı" ordenli Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki ADAU) assistent vəzifəsinə təyin edilib. Eyni zamanda həmin il institutu əla qiymətlərlə bitirdiyinə görə Voronej Kənd Təsərrüfatı İnstitutunun rektoru, professor B.T.Artyomovun təqdimatı ilə təhsilini davam etdirmək üçün məqsədli aspiranturaya göndərilir. Aspiranturanı müvəffəqiyyətlə bitirir. Görkəmli alim, iqtisad elmləri doktoru, professor, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Zapletin Vladimir Yakovleviçin elmi rəhbərliyi ilə dissertasiya üzərində işləyir. 1984-cü il iyunun 1-də Moskva Yerquruluşu İnstitutunun Elmi şurasında uğurla dissertasiya işini müdafiə edir, ona iqtisad elmləri namizədi elmi dərəcəsi verilir. O, bu dərəcəni alan ilk azərbaycanlı alim - yerquruluşçusudur. 2006-cı ildə Ramiz Quliyev doktorluq dissertasiyasını müdafiə edərək torpaqşünaslıq və ekologiya ixtisasları üzrə kənd təsərrüfatı elmləri doktoru elmi dərəcəsinə, sonralar professor elmi adına layiq görülür.

Hərbi xidmətdən sonra, yəni 1985-ci ilin dekabrından AKTİ-nin (ADAU) Yerquruluşu və geodeziya kafedrasında assistent, sonralar baş müəllim, dosent seçilir. 1990-cı ilin fevralında Yerquruluşu və geodeziya kafedrasının müdiri təyin edilir.

1993-cü ildə Heydər Əliyev ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gələndə digər sahələrlə yanaşı, aqrar təhsilin inkişafında da islahatlar aparır, yeni kadrlar təyin edir. Akademik Məmmədtağı Cəfərov təkrar təhsil müəssisəsinə rektor, Ramiz Quliyev isə tədris işləri üzrə prorektor təyin edilir.

Ramiz Quliyev 1996-cı ildən 2010-cu ilədək bu təhsil müəssisəsində tədris işləri üzrə prorektor işləyir, 2007-ci ilin iyun ayından 2008-ci il noyabrın 26-dək rektor vəzifəsini icra edir. Hazırda İqtisadiyyat Nazirliyinin Əmlak Məsələləri Dövlət Xidmətində məsul vəzifədə çalışmaqla, həm də Azərbaycan Memarlıq və İnşaat Universitetinin professorudur. Bu qısa avtobioqrafik məlumat çox mətləblərdən xəbər verir və alimin keçdiyi ömür yoluna hərtərəfli işıq salır.

Tarixi gerçəklik isə odur ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində respublikamızın rəhbəri olduğu 1969-1982-ci illərdə hər il keçmiş İttifaqın nüfuzlu ali təhsil müəssisələrinə azərbaycanlı gənclərin müsabiqədənkənar qəbulu həyata keçirilib. Həmin illərdə SSRİ-nin 170 nüfuzlu ali məktəbində 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradılıb. Həmin gənclər indi də Azərbaycanın inkişafında mühüm rol oynayırlar.

Bu günlərdə dövlət səviyyəsində həmin məzunlarla Heydər Əliyev sarayında keçirilən görüş işlərin nə qədər sağlam təməl üzərində qurulduğunun isbatıdır, zamanında gerçəkləşən bu işlərin daha böyük əhəmiyyət daşıdığının göstəricisidir. Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının məntiqi nəticəsidir.

Onu da qeyd edək ki, səmimiyyət və ləyaqət Ramiz müəllim üçün bütün dəyərlərdən üstündür. İnsanı insan kimi sevməyi bacarır, onun dəyərini anlayır, insanlığa adına ehtiramla yanaşır. Tanrının bəxş etdiyi ömür payını bu gündək ləyaqətlə yaşayıb, həyatının mənasını nəcib, xeyirxah əməllərdə görüb. Bütövlükdə xalqının tərəqqisinə, gəncliyin daha kamil yetişməsinə çalışıb. Bu istiqamətdə əvəzsiz töhfələr verib, zəngin mənəviyyat sahibi kimi ehtirama layiq olub. Gördüyü işlərlə təkcə öz çevrəsinin, dostlarının, yaxınlarının deyil, el-obasının da sevimlisinə çevrilib, cəmiyyətin rəğbətini qazanıb. Bu, onun mənəvi ucalığa qovuşan ömür yolunu zənginləşdirib, ziyalı kimi insanlara sevdirib. Onun bu cür formalaşmasında genetik faktorlar da mühüm rol oynayıb. Atası - çoxuşaqlı ailənin başçısı Mirmahmud Ağa yurduna bağlı, dini və milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə hörmətlə yanaşan ziyalı kimi rayonda ad-san qazanıb. İnsanlarla münasibətdə olduqca səmimi olub, övladlarını da bu ruhda tərbiyə edib. Sevindirici hal bir də odur ki, Mirmahmud Ağanın övladlarının hamısı bu ruhda böyüyüb, əsl insan kimi kamilləşiblər.

Belə bir deyim var. "Qəhrəman olmaq üçün bəzən bir an kifayət edir. Amma ləyaqətli və cəmiyyətdə seçilən insan olmaq üçün bəzən bütöv bir ömür belə kifayət etmir". Millət ancaq sevdiyi insanları yaddaşında saxlayır. O insanları ki, onlar xeyirxah düşüncə, xeyirxah söz və əməl sahibləridir.

Ramiz Quliyev 100-dən çox elmi əsərin, o cümlədən dərslik, dərs vəsaiti, monoqrafiya və tövsiyələrin müəllifidir.

Ramiz müəllim ədəb-ərkanı, səbr və təmkini ilə yaddaşımıza yazılan və qürurla xatırladığımız kişilərdəndir. Sakit, xeyirxah, təvazökar, soyuqqanlı olduğu qədər də haqsızlığa qarşı çıxandır. Cəsarətlidir, ağıllıdır və düzlüyü sevəndir.

Güclü siyasi düşüncəyə və idarəetmə qabiliyyətinə malikdir. Dövlətinə çox bağlıdır. Gəncədən başlayan ömür yolunun ən qaynar illərini məşhur 91-lərdən biri, akademik Məmmədtağı Cəfərov və bir neçə fəalla birlikdə YAP şəhər təşkilatının yaradılmasına həsr edib. Uzun illər təşkilatın idarə heyətinin və siyasi şurasının üzvü kimi fəaliyyət göstərib. İndi hakim partiyanın ən çox təcrübəsi olan qocaman üzvlərindən biridir. 1993-cü ildən başlayan siyasi fəaliyyəti təbii ki, asan olmayıb. Çox ziddiyyətli məqamlarla qarşılaşıb. Təqib edilib, təzyiqlərlə üzləşib. Amma əqidəsindən dönməyib.

Ramiz Quliyevin ictimai-siyasi fəaliyyəti də həmişə hörmətlə qarşılanıb. O, Gəncə şəhərində bir neçə il davamlı olaraq dairə seçki komissiyasının sədri kimi də fəaliyyət göstərib.

Ömrün 65-ci pilləsində olan Ramiz müəllim əsl insani keyfiyyətlərin və alim ömrünün şərəfli daşıyıcısı kimi harada işləyibsə, yüksək hörmət qazanıb, insanların könlündə özünə yer tapıb.

*Nüsrət HÜSEYNOV,*
*Qalib RƏHİMLİ,*
*Azərbaycan Dövlət Aqrar Universitetinin əməkdaşları*

# Mina ilə bağlı təhlükəni bacardığım qədər dünya ictimaiyyətinə çatdıracağam - Stig Lindgren

"Burada görülən işlər, minaları təmizləmək üçün ANAMA əməkdaşlarının özlərini risk altına alması, doğrudan da, təsiredici məqamdır. Mən Birləşmiş Millətlər Təşkilatının Livanın cənub ərazisində mina əleyhinə proqramında iştirak etmişəm. Orada dörd əməkdaşımız həlak olub və buna görə bizə Nobel Sülh Mükafatı təqdim olunub. Bildirmək istəyirəm ki, ANAMA əməkdaşlarının fəaliyyətinə görə onlara da bu mükafat verilməlidir".

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ermənistanın işğalından azad olunmuş Füzuli rayonuna səfər edən isveçli səyyah Stig Lindgren deyib.

"Mən burada gördüklərimdən böyük təəssüf hissi keçirirəm. Bu torpaqlara sülh arzulayıram. Burada bir vaxtlar yaşamış insanların tezliklə öz doğma yurdlarına qayıtmalarını diləyirəm. Burada gördüklərimi, xüsusilə mina ilə bağlı təhlükəni bacardığım qədər dünya ictimaiyyətinə çatdıracağam", - deyə səyyah bildirib.

# *Lena FİHR:* "Gördüyümüz dağıdılmış evlər və abidələr bizi çox məyus etdi"

**"Dostum mənə Azərbaycan və Bakı haqqında danışırdı. O vaxtdan bəri buraya gəlmək haqqında düşünürdüm. Beləliklə, mən buradayam. Buranın çox gözəl havası, maraqlı, görməli yerləri, gözəl insanları var".**

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ermənistanın işğalından azad olunmuş Xocavənd rayonuna səfər edən isveçli səyyah Lena Fihr deyib.

"Buraya gələndə dağıdılmış evləri gördüm. O evlərin kərpicləri niyə çıxarılaraq aparılıb, başa düşmürəm. Burada hər yerdə şahidi olduğumuz dağıdılmış evlər və abidələr bizi çox məyus etdi. Burada təhlükəsiz əraziləri tapmaq çətin olduğu üçün bəzi yerlərə səfər etməyə icazə yoxdur. Lakin bu ərazilərin gözəl təbiəti və mənzərələri var", - deyə isveçli səyyah bildirib.

# *İsveçli səyyah:* "Müharibə dövründə baş verən hadisələr çox təsiredicidir"

**Müharibə dövründə baş verən hadisələr bizim üçün çox maraqlı və təsiredicidir.**

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ermənistanın işğalından azad olunmuş Xocavənd rayonuna səfər edən isveçli səyyah Mikael Qustavson deyib.

"Burada olduğuma görə çox şadam. Bugünkü səfər bizə maraqlı tarixi yerləri görməyə imkan yaradıb.

Bu bölgəyə ilk səfərimiz olsa da, əvvəllər də müharibə zonası olmuş Bosniya və Herseqovina, Yuqoslaviya kimi ölkələrə səfər etmişik. Belə gözəl tarixi, mədəni abidələri olan bir bölgənin dağıntılara məruz qalması bizi məyus edir. Əvvəllər səfər etdiyim yerlərin müharibədən sonrakı vəziyyətini internet vasitəsilə də izləyirəm. Ancaq burada müharibənin bir bölgənin mədəniyyətinə, tarixinə və insanlarına necə təsir göstərə bildiyinin canlı şahidi oluram", - deyə səyahətçi bildirib.

# Cıdır düzündəki festival ermənilərdə xof yaradıb:

# "İlham Əliyev növbəti atəşfəşanlığı Xankəndidə edəcək"

**Şuşada Cıdır düzündə "Xarıbülbül" festivalının keçirilməsi mədəni tədbir olduğu qədər siyasi baxımdan da böyük əhəmiyyətə malikdir. Şuşanın azad olunmasından sonra artıq 3-cü dəfədir keçirilən və Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinə həsr olunan möhtəşəm festival, sözün əsl mənasında, tarixi zəfərimizdə böyük rol oynayan milli birlik və həmrəyliyin bayramı kimi də qeyd edilməkdədir.**




Hayastan mediasına, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, festival qarşı tərəfdə ciddi narahatlıq yaradıb. Erməni ekspert Vaçaqan Geqanyan yazır ki, Azərbaycan Şuşada yenidən əsl güc nümayiş etdirdi: "Şuşadakı atəşfəşanlıq Stepanakertdə (Xankəndi-red) yaşayan ermənilərin böyük qorxusuna səbəb olur. Onlar burada daha çətin qalalar".

Yutub platforması üzərindən canlı yayıma çıxan bloqçular Nana Minasyan və Levon Baqdasaryan Şuşada keçirilən festival barədə fikir mübadiləsi aparıblar. Onlar canlı yayım müddətində baş nazir Nikol Paşinyanı tənqid edib, onu vətənə xəyanətdə ittiham ediblər: "Azərbaycan Şuşada bayram edir, muğam oxuyur, Nikol isə hökumət iclasında sağlıq deyir. Vaxtilə Mehriban Əliyevanı Şuşada çay içməyə və muğama qulaq asmağa dəvət edirdilər, onlar da bu dəvəti qəbul edib və yerinə yetiriblər".

"4rd.am" nəşri isə yazır ki, artıq 3 ildir mayın 8-ni ağır hisslər və əhvali-ruhiyyə ilə salamlayırıq: "Xarıbülbül" musiqi festivalı və atəşfəşanlıqla Azərbaycan yenidən ermənilərə göz dağı verir. Biz bu gedişlə "Artsax"dan (Qarabağ-red) əlavə, Hayastanı da itirəcəyik. Çünki insanlarda heç bir inam qalmayıb".

Profilinə baxdıqda Xankəndidə yaşadığı qeyd edilən Qriqor Rubanyan adlı feysbuk istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamamilə tükənib: "Stepanakertdə (Xankəndi-red) yaşayıram. Gecə səs-küydən, göyün işıqlanmasından qorxaraq eyvana qaçdım. Dedim yəqin yenidən müharibə başladı. Sosial şəbəkələrə baxdıqda öyrəndim ki, bu, Şuşada təşkil edilən bayram atəşfəşanlığıdır. Paşinyan, buna nə deyəcəksən?"

Feysbuk istifadəçisi Karen Aşotyanın paylaşılan xəbərə rəyi də daha çox müzakirələrə səbəb olub: "Nikol öz xalqını, dövlətini müharibəyə sürüklədi. Nikolun illər öncə sərxoş halda yallı getdiyi Cıdır düzündə Azərbaycan festival təşkil edir. Çok kədərli bir vəziyyətlə qarşılaşmışıq. Bugünkü Hayastan bədbəxtdir".

Diana Arutyunyan adlı "Vkontakte" istifadəçisi isə vahimə dolu status paylaşıb: "Nə vaxta qədər belə davam edəcək? İki gündür Şuşada təşkil edilən atəşfəşanlıq yuxularımı qaçırdıb. Müharibədə Azərbaycana uduzduğumuzu görmüşdük, indi isə psixologiyamız pozulub. Bu gedişlə İlham Əliyev növbəti atəşfəşanlığı Stepanakertdə (Xankəndi-red), Sünikdə (red- Zəngəzur) edəcək".

Miqran Petrosyan adlı instaqram istifadəçisi Hayastanın bədbəxtlər ölkəsi olduğunu, rəhbərlərinin isə hər sahədə İlham Əliyevə uduzduğunu yazıb: "Paşinyan nə qədər yalan desə də, həqiqət budur: müharibədə biz uduzduq. İlham Əliyev Şuşada qalib ölkənin rəhbəri kimi qürurla danışır, festivallar keçirir. Azərbaycanlılar prezidentləri ilə fəxr edirlər. Biz isə Koçaryana, Sarkisyana, Paşinyana görə utanırıq".

Nikol Paşinyanın feysbukda paylaşımına Aşot Mixitaryanın rəyi çoxlu bəyənmə toplayıb: "Baş nazir, işiniz-gücünüz sosial şəbəkələrdə paylaşımlar etməkdir. İlham Əliyev səni alçaldaraq Şuşada festival keçirir, atəşfəşanlıq edir, sən isə boş vədlərlə xalqı aldadırsan. Vaxtında sizə çox dedik ki, bizə müharibə lazım deyil, uşaqlarımızı çöldən tapmamışıq. Nəticə isə budur: "Artsax" (Qarabağ-red) əldən gedib, növbə Sünikdir (Zəngəzur-red)".

Edqar Qasparyan adlı istifadəçinin tviterdə paylaşımı da 100-dən çox "retvitter" edilib. O, Xankəndidə pəncərədən çəkdiyi Şuşadakı atəşfəşanlığın videosunu paylaşaraq yazıb: "Yalanlarla dolu Hayastan rəhbərliyi. Azərbaycanlılar Şuşada bayram edir. Sabah Stepanakertdə (Xankəndi-red) olmayacaqlarının zəmanətini kim verə bilər? Dostum Henrix, Yerevanda kirayə evlərin qiyməti ilə maraqlan, burada qala bilmərəm. Hakimiyyətə gəlməsi üçün gecələr belə yatmadığımız, dəstək olduğumuz Paşinyan Ermənistanı məhvə aparır".

Qaqik Sarkisyan isə "Odnoklassniki"də festivalla bağlı paylaşılan xəbərin altına belə bir şərh yazıb: "Açıq reallıq budur. Əliyev Şuşanı, Laçını, Kəlbəcəri geri alması ilə Paşinyana əsl dərs verdi. Bizim Nikol bəs nə edəcək? Seyrçi mövqeyində qaldı. Deyəsən, Nikol Stepanakertdə də (Xankəndidə-red) Azərbaycan bayrağı görmək istəyir. Birdəfəlik orada yaşayan ermənilərə səslənin ki, Azərbaycan vətəndaşlığını qəbul edin, sizin də, bizim də canımız bu dava-dalaşdan qurtarsın. Bezdik axı".

Bütün bunlar "Xarıbülbül" musiqi festivalının ermənilər üçün nə dərəcədə sarsıdıcı zərbə olduğunu aydın nümayiş etdirir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi məktəbəqədər təhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə

## *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

Təşkilat: Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, PDF formatında əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.04.2023-cü il tarixdən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.04.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir.)*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.04.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri və malların tam göndərilməsi (təhvil verilməsi) müddəti barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 100 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 06.06.2023-cü il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 14.06.2023-cü il 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 16.06.2023-cü il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Bəzi dağlıq və dağətəyi rayonlarda havanın arabir yağıntılı olacağı gözlənilir

**Azərbaycanda mayın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 20-25° isti, dağlarda gecə 3-8°, gündüz 7-12°, bəzi yerlərdə 15° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün ikinci yarısında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 23-28° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 8-13°, bəzi yerlərdə 15-18° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 8-13°, bəzi yerlərdə 15-18° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 17-22° isti olacaq.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 16-21° isti, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-16°, gündüz 20-25° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14°, gündüz 16-21° isti, dağlarda gecə 11-13°, gündüz 13-17° isti olacağı gözlənilir.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmiləri üçün yanğın detektorlarını test etmək üçün cihazların satın alınması məqsədilə AM083 nömrəli açıq

## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 may 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1164.**

***Tender komissiyası***



# «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1138

Qiyməti 40 qəpik